www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 dekabr 2016-cı il Cümə axşamı № 285 (6606) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda bir gündə iki avtobus "terroru" - 1 ölü, bir neçə yaralı

yazısı səh.14-də

**Gündəm**

### Azərbaycanın 2016-da akkord hərbi təlimi - döyüş hazırlığı təkmilləşdirilir



Ölkənin hərbi qüdrətinə diqqəti artırması təkcə işğalçı Ermənistanda deyil, başqa ünvanlarda da həssaslıqla izlənməkdədir...

yazısı səh.11-də

### Azərbaycanın tanınmışları 22 yaşında: biri qəzet qururdu, biri redaktor idi, biri əsgər...

yazısı səh.4-də

### Azərbaycanda doğulduğu deyilən peyğəmbərin sirli təqvimi

yazısı səh.5-də

### "Moskva üçlüyü"nün Suriya qərarı

yazısı səh.12-də

### Avropada yeni terror dalğası gözlənilir

yazısı səh.6-da

### Dərdlərimizə niyə lağlağı ilə yanaşırıq?

yazısı səh.13-də

### "Rus səfirin qətlində ABŞ izi" iddialarına reaksiyalar

yazısı səh.9-da

### Azərbaycanda Trampın partiyası ilə eyni ittifaqda olan partiya varmış

yazısı səh.10-da

### ""Ərəb baharı" Suriyadan Türkiyəyə, oradan da İrana keçməli idi" - ekspert

yazısı səh.9-da

### Bakıda nişanlı rəfiqəsini şantaj edən qız döyüldü

yazısı səh.14-də

### Masallıda kriminal avtoritetin qardaşını maşınında güllələyib öldürdülər

yazısı səh.2-də

## Xain terror coğrafiyasını böyüdür

# AZƏRBAYCAN YENİDƏN TERROR HƏDƏFİNDƏ - QƏRB NƏŞRİNDƏN SENSASİON XƏBƏRDARLIQ

İŞİD Rusiyanın Bakıdakı səfirliyini də hədəf götürdü; Bakı-Kreml münasibətləri növbəti sınaqla üz-üzə; Moskva isə Ankara ilə vizasız gediş-gəliş məsələsini dondurdu - səbəb; ekspert müdhiş plandan danışdı...



yazısı səh.8-də

## Türmədə intihar etmiş MTN polkovnikinin qardaşı "Yeni Müsavat"a danışdı - sensasiya!

Eldar Mahmudovun "sağ əli" olmuş İlqar Əliyevin qardaşı İsmayıl Əliyev elə şeylər danışdı ki; "O, özünü asacaq dərəcədə aciz deyildi"

yazısı səh.3-də



*İlham Şaban:*

### "Qafqazda Azərbaycandan ucuz yanacağı olan ölkə yoxdur"

yazısı səh.7-də



### İran prezidenti Xocalı qatili ilə bir arada

yazısı səh.12-də



*İlqar Aşurbəyov:*

### "Akif Çovdarovun kürəkəninə otaq vermədiyim üçün məndən təhdidlə 300 min aldı"

yazısı səh.13-də

YENİ MÜSAVAT
N 285 (6606) 22 dekabr 2016



## Prezidenti Türkiyənin iqtisadiyyat nazirini qəbul etdi

**Azərbaycan prezidenti İlham Əliyev Türkiyə iqtisadiyyat naziri Nihat Zeybekcinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. APA-nın məlumatına görə, prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin iqtisadiyyat nazirlərinin Bakıda keçiriləcək görüşünün önəmini qeyd edib.**

Dövlət başçısı Nihat Zeybekcinin Azərbaycana səfərinin həm Şuranın iclasında iştirakı, həm də ölkələrimiz arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi ilə bağlı müzakirələrin aparılması baxımından əhəmiyyətini vurğulayıb.

Ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinə toxunan nazir Nihat Zeybekci 15 iyul hadisələri zamanı Azərbaycanın Türkiyəyə ən böyük dəstək verən ölkə olduğunu deyib.

Azərbaycan ilə Türkiyənin ən yaxın qardaş ölkələr olduğunu vurğulayan dövlət başçısı ölkələrimizin bir-birinə hər zaman dəstək vermələrini təbii hal kimi dəyərləndirib.

Görüşdə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclaslarının əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından önəmi vurğulanıb, iqtisadi sahədə əməkdaşlığımızın inkişafına dair məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Masallıda kriminal avtoritetin qardaşını maşınında güllələyib öldürdülər

**Masallı rayonunda qətl hadisəsi baş verib. APA-nın cənub bürosunun məlumatına görə, hadisə dekabrın 21-də axşam saatlarında rayonun Türkoba kəndi ərazisində qeydə alınıb.**

Lənkəranın Boladi kənd sakini olan Fariz adlı şəxs naməlum şəxs tərəfindən odlu silahla qətlə yetirilib. Hadisə yerində dünyasını dəyişmiş şəxsin meyiti müayinə olunması üçün Cəlilabad "morq"una aparılıb.

Məlumata görə, hadisəni törətmiş şəxs könüllü polisə təslim olub. Onun qətlə yetirdiyi şəxsin lənkəranlı kriminal avtoritet kimi tanınan Elçinin qardaşı olduğu bildirilir.

Hazırda Masallı rayonunun hüquq-mühafizə orqanlarının əməkdaşları hadisə yerində araşdırma aparırlar.

## "Müsəlman ölkələrindən İŞİD-ə ən az qoşulanlar azərbaycanlılardır"

**"Müsəlman ölkələrindən İŞİD terror qruplaşmasına qoşulanlar arasında ən az azərbaycanlılardır".**

APA-nın xəbərinə görə, bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı "Fitnə" sənədli filminin təqdimat mərasimində çıxışı zamanı deyib.

Dövlət Komitəsinin sədri qeyd edib ki, Dövlət Təhlükəsizliyi Xidmətinin apardığı təhlillərə əsasən son bir ildə Suriyaya Azərbaycandan bir nəfər olsun belə getməyib.

## "Ceyş əl-Fəth" qruplaşması Andrey Karlovun qətlinə görə məsuliyyəti üzərinə götürüb

**"Ceyş əl-Fəth" ("Fəth ordusu") hərbi qruplaşması Rusiyanın Türkiyədəki səfiri Andrey Karlovun qətlinə görə məsuliyyəti üzərinə götürüb. APA-nın xəbərinə görə, bu barədə "As-Sumariya" kanalı məlumat yayıb.**

"Ceyş əl-Fəth" ("Fəth ordusu") Suriyanın İdlib şəhərində müxalif qrupların bir araya gələrək yaratdığı qruplaşmadır. Qruplaşmanın tərkibinə "Əl Nüsra Cəbhəsi", "Əhrar-uş-Şam", "Liva əl-Haqq", "Şam Legionu", "Cund əl-Aksa", "Ceyşül Sünnət" və "Əcnəd əl-Şam" qrupları daxildir.

Hadisə ilə bağlı 13 nəfərin saxlanıldığı bildirilir. Onların arasında qətli icra edən Mert Altıntaşın anası, atası, bacısı və digər qohumları var.

Xatırladaq ki, dekabrın 19-u axşam saatlarında Ankaradakı Müasir İncəsənət Mərkəzində keçirilən "Rusiya türklərin gözü ilə" sərgisində çıxışı zamanı Rusiyanın bu ölkədəki səfiri A. Karlov qətlə yetirilib. Hadisəni törədən şəxsin polis əməkdaşı Mert Altıntaş olduğu məlum olub. O, təhlükəsizlik əməkdaşları tərəfindən öldürülüb.

# "Hamı bilir ki, Qərb ölkələri miqrantları, qaçqınları hansı vəziyyətə salır" - Əli Həsənov

**"Dünyada qədim müsəlman şəhərlərinə və tarixi abidələrinə biganə münasibət müşahidə olunur. Bu çox təəssüfedicidir. Dünyadakı bir çox qədim müsəlman-türk şəhərləri və tarixi abidələri dağıdılıb. Bütün müsəlman şərqinin tarixi abidələri və qədim şəhərləri, o cümlədən Suriya ərazisində yerləşən Palmira şəhəri havadan atılan bombalarla yerlə yeksan edilib".**



APA-nın məlumatına görə, bunu Prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov "İrəvan - gizlədilmiş həqiqətlər" sənədli filminin (Azərbaycan, rus və ingilis dillərində) təqdimatında deyib.

Ə. Həsənov qeyd edib ki, "terrorçu" vurmaq adı ilə qədim şəhərlər və mədəniyyət abidələri dağıdılır.

"Çox təəssüf ki, bu gün bizim "sivil Qərb" adlandırdığımız məkanda mədəniyyət abidələrinə bu cür münasibət hökm sürür. Onların tolerantlığı da, multikulturalizmi də bu vəziyyətdədir. Cənab prezident də dəfələrlə qeyd edib ki, Azərbaycandakı multikulturalizmə də, Qərbdəki multikulturalizmə də baxın. Bizim fərqimiz ondan ibarətdir ki, Azərbaycanda yaşayan bütün xalqlara, etnik din mənsublarına özümüz qədər hörmət bəsləyirik, sevgi ilə yanaşırıq. Qərbin ən yaxşı cəhəti o oldu ki, başqa dildən, dindən olanlara bir müddət dözümlülük göstərdi, indi daha ona da dözmürlər. Bu gün hər kəs bilir ki, Qərb ölkələri miqrantları, qaçqınları hansı vəziyyətə salır, onlara hansı münasibəti göstərir, gecə ilə əllərində it və silahlarla həmin insanları didərgin salırlar, sərhədlərdə güllələyirlər. Sonra da Qərb sivilizasiyasının tolerantlığından danışırlar. Onların tolerantlığı məhz budur. Bu gün dünyada formalaşan islamofobiya xəstəliyinin qurbanlarından biri də biz azərbaycanlılarıq", - deyə o qeyd edib.

# Türk diplomatının qızının intiharın təfərrüatları...

**15 yaşlı Türkiyə vətəndaşı Bakının Nəsimi rayonunda özünə qəsd edib. "Yeni Müsavat" qəzetinin əməkdaşı hadisənin təfərrüatlarını öyrənmək üçün olay yerinə baş çəkib.**



Qeyd edək ki, intihar edən qızın atası Günler Arslan Azmi Türkiyənin Azərbaycandakı səfirliyində işləyir. O, səfirin gömrük işləri üzrə müşaviridir.

Gənc qızın intihar etməsinin səbəbinə gəlincə, bildirilir ki, o, təhsil aldığı liseydə 1 günlük cəzalandırılıb və buna görə valideynlərinin onu danlayacağından çəkindiyi üçün özünü 10-cu mərtəbədə yerləşən mənzildən ataraq intihar edib.

Sarabski küçəsi, bina 16-nın komendantı "Yeni Müsavat"a danışıb. O, hadisə baş verməzdən öncəki vəziyyəti belə izah edib: "Gənc qızın binanın qarşısında əyləşib ağladığını gördüm. Yaxınlaşıb səbəbini öyrənməyə çalışdım. Ancaq nə olduğunu demədi. Onu sakitləşdirmək üçün binanın həyətindəki dərzi salonuna apardım, evlərinə getməsini xahiş elədim. Növbəm bitdiyi üçün evə getməli idim. Mühafizəçiyə tapşırdım ki, nə baş verdiyi ilə maraqlanarsan. Mühafizəçi isə qızın atasından nə baş verdiyini soruşub. O da oxuduğu məktəbdə problem olduğunu deyib. Qız sakitləşib, dərzidən çıxıb, parka gedib. Qız sonradan atasına zəng eləyib. Atası gedib onu parkdan evə gətirib. Çox sakit görünüblər. Qızın "Anadolu" liseyində təhsil aldığı bilirik. Çox sakit ailədirlər. İki il olar ki, bu binada yaşayırlar. Arslan Gülər haqqında onu bilirəm ki, Türkiyədə gömrük nazirinin müavini olub".

Musavat.com olaraq intihar hadisəsinin görüntülərini əldə etməyə çalışdıq. Təhlükəsizlik kameralarında intihar hadisəsindən öncə saat 18:56 radələrində ailənin birgə evə gəldiyinin görüntüləri əks olunub. Kadrlarda Arslan Gülərin, həyat yoldaşı ilə birlikdə qızının qolundan turaraq, sakit şəkildə içəri gətirdikləri görünür. İçəri daxil olduqdan 1 saat sonra intihar hadisəsi baş verir. Binanın girişindəki nəzarət kamerasında saat 20:01 radələrində intihar etdiyi görünür. Yerə düşdükdən sonra mühafizəçi çölə çıxıb, ətrafa baxır, intiharı görmür. Avtomobil toqquşması olduğunu zənn edir. Qız intihar edərkən avtomobilin arxasına düşdüyü üçün kamera düşmə anını qeydə ala bilməyib.

Komendant bildirir ki, ailə evə qalxdıqdan sonra yenidən mübahisələri düşüb. Anasının dediyinə görə, qız öz otağında olarkən pəncərə səsinin gəldiyini eşidiblər, bu zaman valideynlər qapını açmağa çalışıblar, lakin bağlı olub. Qızı qapını açmadığı halda Arslan Gülər çiyni ilə qapını qırıb. Otağa daxil olan zaman artıq gec olub.

Hadisədən dərhal sonra Arslan Gülər və həyat yoldaşı qızının cənazəsini də götürərək Türkiyəyə yola düşüblər

## "SOS - Sərsəng" layihəsindən AŞ PA qətnaməsinə

AVCİYA "2085 (2016) saylı AŞPA qətnaməsi: praktikadan nəzəriyyəyə" mövzusunda konfrans keçirəcək

**Dekabrın 23-də Bakıda, "Ambassador" otelində Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının təşkilatçılığı ilə "2085 (2016) saylı AŞPA qətnaməsi: praktikadan nəzəriyyəyə" mövzusunda elmi-nəzəri konfrans keçiriləcək.**

Musavat.com xəbər verir ki, konfransda açılış nitqi ilə AVCİYA-nın prezidenti, Şamaxının millət vəkili Elxan Süleymanov "SOS - Sərsəng" layihəsindən AŞPA qətnaməsinə" mövzusunda çıxış edəcək. Hüquq elmləri doktorları Əmir Əliyev, Rüstəm Məmmədov, Fazil Zeynalov, siyasi elmlər doktoru Ramiz Sevdimalıyev, hüquq üzrə fəlsəfə doktorları Əlövsət Allahverdiyev, Samirə Eyvazova, Turqay Hüseynov, Azər Səfərov, eləcə də Şahin Məmmədrzalının da konfransda çıxışları nəzərdə tutulub.

Elmi-nəzəri konfransda Ermənistanın Azərbaycana təcavüzü və insan hüquqlarının müdafiəsi, Sərsəng su anbarının işğalı və beynəlxalq hüquq, Ermənistanın Azərbaycana təcavüzü beynəlxalq təşkilatlarda, AŞPA-nın 2085 (2016) saylı qətnaməsinin siyasi və beynəlxalq hüquqi əhəmiyyəti, beynəlxalq ekoloji təhlükəsizlik, silahlı münaqişələr və sağlam ətraf mühitdə yaşamaq hüququ, hərbi münaqişələr zamanı hidrotexniki qurğuların mühafizəsi, 2085 (2016) saylı AŞPA Qətnaməsi informasiya hüquqları və Azərbaycanın milli media hüququ kontekstində və s. mövzular müzakirə olunacaq.

Bütün media nümayəndələri konfransa dəvətlidir.



# Türmədə intihar etmiş MTN polkovnikinin qardaşı "Yeni Müsavat"a danışdı - sensasiya!

## Eldar Mahmudovun "sağ əli" olmuş İlqar Əliyevin qardaşı İsmayıl Əliyev elə şeylər danışdı ki; "O, özünü asacaq dərəcədə aciz deyildi"

**Dekabrın 21-də "Təzəpir" məscidində ləğv olunmuş MTN-in Antiterror Mərkəzinin rəis müavini vəzifəsində çalışmış polkovnik İlqar Əliyevin ölümünün ildönümünə həsr edilmiş yas məclisi keçirilib.**

*Məclisdə İlqar Əliyevin keçmiş iş yoldaşları, rəhbərliyi iştirak etməyiblər. Məclisə qatılan əməkdaşımız İlqar Əliyevin qardaşı İsmayıl Əliyevdən müsahibə alıb.*

*Yada salaq ki, İlqar Əliyev Eldar Mahmudov vəzifəsindən çıxarılandan dərhal sonra - 2015-ci il oktyabrın 17-də həbs edilmişdi. Az bir vaxtda İ.Əliyevə ittiham elan edib, onu Bakı İstintaq Təcridxanasına (BİT) göndərmişdilər. İ.Əliyev BİT-də 2 aya yaxın qaldı. 2015-ci il dekabrın 20-də onun meyitini kəndirdən asılmış vəziyyətdə saxlanıldığı kamerada aşkar etdilər. Bu gün də onun ölümünün üzərində sirr pərdəsi qalmaqdadır...*

*İsmayıl Əliyev həmin sirr pərdəsinin gec-tez qardaşının ölümü üzərindən götürüləcəyinə əmindir:*

- Zaman özü hər bir şeyi həll edəcək. Hər şey zamanında üzə çıxacaq. Nə istəyirlər, nə qədər istəyirlər yazsınlar.

***- Nə yazırlar ki?***

- Nədən yazmırlar? Hərə bir şey yazır, bizdən də soruşmurlar.

***- Nələri danışmaq istəyirsiniz deyin, danışın. Mətbuatda danışmağınıza qadağa var?***

- Yoxdur. Bizdən heç soruşan da olmayıb.

***- Özü gözləyirdi ki, onu tutarlar, təcridxanaya göndərərlər?***

- Yox, o günə qədər heç ağlına belə gətirmirdi. Narazılığı yox idi, heç nə olmamışdı. Amma işi çox ağır idi. Bütün agentlər bunun boynunda idi. O mərkəzdə 2 əsas adam var idisə, biri də elə İlqar idi. Hökumət üçün işləyirdi. O, özü üçün işləmirdi. Xalq üçün işləyirdi, yetim-yesirə yardım edib.

***- Nə qədər maaş alırdı ki?***

- Maaşı babat idi. O, həmişə kefi istədiyi kimi yaşayıb. Kimə dəstək veribsə, onlar da sonradan ona köməklik ediblər, ona görə də lap yaxşı yaşayıb.

***- İlqar Əliyevin özünü asması ilə bağlı çox yazılıb. Sizcə, orada nə baş verib?***

- İlqarın özünü asmasına inanmırıq. Bunu da demişik.

***- Yəni gedib tələb edirsiz ki, işi araşdırsınlar?***

- Onlara inanmırıq. Ona görə də getmirik.

***- Bəlkə getsəz, məsələni daha obyektiv araşdırardılar. Sizin şübhələrinizi hərtərəfli yoxlayardılar?***

- Bunu zaman həll edəcək. Vaxt! Zaman! Hər şey zamanında üzə çıxacaq.

***- Siz müraciət etməsəz, vaxt-zaman yetişəndə araşdırılmalı nəsə qalacağına ümid edirsiz?***

- Allaha həvalə edirəm. Hamısını. Belə vətənpərvər oğulu, Azərbaycan üçün canını verən, gözünü qırpmadan vətən üçün canından keçməyə hazır oğulu belə etdilər...

***- Nəyi nəzərdə tutursuz?***

- Allaha tapşırıram. Hamı bilir ki, bütün əməliyyatları o edirdi. İlqar Xocalı hadisəsindən sonra mənim formamı geyib cəbhəyə getmişdi, orada yaralanmışdı. Gözləri tutulmuşdu. Prezident ona xidməti dövründə 10 dənə orden, medal vermişdi. Tərifnamələrinin sayı-hesabı yoxdur. Xidmətinə görə veriblər. İlqar sistemə girəndən sonra Amerikada da oxumuşdu. 1998-ci ildə Amerikada kurslarda olmuşdu. Ondan əvvəl isə 2 ay Misirdə oxumuşdu. İlqar əsl çekist idi.

***- Ona son zamanlar təzyiq, hər hansı bir eyhamlar vardı?***

- Ona kim təzyiq edə bilərdi ki? O kimə istəsəydi, özü ona təzyiq edə bilərdi.

***- Həbsdən əvvəl nəsə hiss etmişdimi?***

- Yox, qərar qəfil verilmişdi. Nə bilərəm ki, nə baş vermişdi. Mən heç bilmirdim ki, o, MTN-də hansı vəzifədə işləyir.

***- Sizə cəmiyyətlə bağlı nələrisə danışırdı?***

- Mənə deyirdi ki, çox da üzdə olma. Bilirdi ki, sadəlövhəm, nəsə deyərəm.

***- Hərbi xidmətdə harada olmuşdu?***

- O dövrdə Əfqanıstan vardı, İlqar da ora getmək istəyirdi. Əfqanıstanın əvəzinə gedib Monqolustana düşdü. O vaxt hər adam "starşina" ala bilmirdi. Amma o, həmin rütbəni almışdı. Əsgərlikdə də çox güclü xidmət etmişdi. O, xidmət adamı idi. Bizlik deyil belə işlər. Hər adam o işi o səviyyədə bacarmazdı.

***- Onun hüquq-mühafizə orqanına marağı haradan idi? Valideynlərin seçimdə rolu olmuşdu?***

- Yox, onun özü istəyirdi ki, hüquqşünas olsun. Atam İlqarı Kənd Təsərrüfatı İnstitutuna qoymaq istəyirdi. Getmədi. Əsgərlikdən qayıtdıqdan sonra işlərini universitetə verdi. Amma daxil ola bilmədi. Sonra hazırlıq kursuna getdi. Hazırlaşdı, növbəti il universitetə girdi. Onun sürətlə oxumaq qabiliyyəti vardı. Kitabın vərəqlərinə göz gəzdirməyi kifayət edirdi. Oxuduğu yaddaşında qalırdı. Çox güclü yaddaşı vardı. Heyf elə oğuldan. Yalan danışmıram. Elə bilərsən ki, jurnalistsən, ona görə belə deyirəm. Əgər mən yalan danışmağı bacarsaydım, indi bəlkə də icra başçısı işləyirdim. İnstitut oxumuşam, kəndçi adamam. Əllərimin qabarına da bax. Kənd təsərrüfatı, mal-qoyunla dolanmışam. İndi də parnikim var, dolanıram. İlqar gecə-gündüz bu vətən üçün çalışırdı. Arada mübahisələrimiz olurdu ölkədəki vəziyyətlə bağlı... Mənə həmişə deyirdi ki, sən heç nə bilmirsən. Bu da axırı.

**"Mənə həmişə deyirdi ki, sən heç nə bilmirsən. Bu da axırı"**

***- Həbsindən sonra yanına görüşə gedirdiz?***

- Görüş verirdilər ki? Bir ərizəni 40 dəfə yazdırırdılar. Burada ərizədə bunu düzəlt, orada onu düzəlt. Bunu ancaq MTN-çilərə edirdilər. Həftəyə 8 kiloqramdan artıq yükü yanına keçirmirdilər. Paltarı da, yeməyi-içməyi də həmin 8 kiloqramın içində idi. Artıq qoymurdular.

***- Psixoloji durumu necə idi? Yəni özünü öldürəcəyi, özünə qəsd edəcəyi haqda nəsə demişdi sizə?***

- Əsəbi idi. Yox, özünü niyə öldürməli idi ki? Neyləmişdi axı? Rüşvət ittihamı vermişdilər, o isə heç kəsdən rüşvət almayıb. Həbsindən sonra pəzəvəngin birini çıxardılar, o da dedi ki, guya İlqar maşınını, pulunu əlindən alıb. Elə adamlar onların əllərinin altındadır, birini götürüb qabağa verirlər.

***- Həbsindən sonra kömək üçün kimlərəsə, məsələn, keçmiş nazirə müraciət etdiniz?***

- Yox, mən heç onları tanımıram. Onun "kruq"u böyük idi. İlqarın həbsindən sonra atam rəhmətə getdi, heç gəlib başsağlığı vermədilər. Elçin Quliyev yasa gəldi, 2 gün sonra onun özünü də hərləyib tutdular.

**"İlqarın həbsindən sonra atam rəhmətə getdi, heç gəlib başsağlığı vermədilər. Elçin Quliyev yasa gəldi, 2 gün sonra onun özünü də hərləyib tutdular"**

***- Deyirsiniz ki, Elçin Quliyevi İlqar Əliyevin yasına gəldiyinə görə həbs etdilər?***

- Mən nə deyim, hər şey göz qabağındadır.

***- Atanız nə vaxt rəhmətə gedib?***

- 2016-cı ilin mayında. Kənddə dəfn etdik. Quruca başsağlığı belə vermədilər. Atam 20 il kolxoz sədri işləmişdi, heç kimin xətrinə dəyməmişdi. Əzazil adam da deyildi. Bizim nəsildə rüşvət alan olmayıb. Kiminsə boğazına çöküm ki, mənə pul ver, belə söhbət olmamışdı. İlqar da ömrü böyü elə şey etməzdi. O, uşaqlıqdan barama saxlayırdı, pambıq qurudurdu, taxıl əkirdi.

***- Vəzifədə olanda biznesi vardı?***

- Yox, olmayıb. Onun biznes saxlamağa vaxtı nə gəzirdi.

***- Onun bahalı maşınları, bir neçə evlərinin olması haqda mətbuatda kifayət qədər məlumatlar vardı...***

- Orada işləyənlərin hamısında olur da. Özün bilmirsən orada vəziyyət nətərdi?

***- Yox, bilmirəm. Necə olub orada vəziyyət?***

- Bu gün adi polisin imkanı İlqarın imkanından artıq idi. Düz demirəm?

***- Yəqin aranızdakı mübahisələr də elə belə məsələlərə görə baş verib?***

- Hə, olurdu. Onun nəyi vardı ki? O boyda vəzifə daşıyan adamın 1 maşını vardı, 1 də evi. Evi də dövlət vermişdi. Biznesinin olması haqda məlumatlar yalandır. Biznesi olsaydı, mən gedib kənddə qoyun niyə güdürdüm? Qardaşıyam da, mənə verərdi də. Pırnıx deyirik adına, xurma yəni, bağımda var, yığıb satıram. Yazırlar ki, guya İlqarın gölü olub. Guya göl atamda olub, atam da həbsindən sonra satıb. Yəni olmayan şeyləri də yazırlar.

***- Sizin susqunluq nümayiş etdirib həmin yazılara ilk gündən münasibət bildirməməyiniz belə məlumatların bolluğunu yaradıb. İlqar Əliyevin özünü öldürməsi, öldürülməsi haqda dəfələrlə yazılıb. Akif Çovdarov vəkili vasitəsilə məlumat yayıb ki, İlqarı öldürüb sonra asıblar. Amma siz susursuz. Niyə?***

- Zaman hər şeyi ortaya çıxaracaq. Kim istəyirdisə, gəlib bizdən soruşaydı. Biz Göyçayın Çərəkə kəndində yaşayırıq. Yəni kim gəlib soruşsaydı, bildiyimizi deyəcəkdik. İlqar özünü asan oğul deyil. Bunu hamı bilir. Vaxtı gələndə haqqımızı tələb edəcəyik. Belə götürəndə respublikada ən düzgün işləyən MTN idi. Onlar gedib bir yetim-yesirdən pul almışdılar?

***- İlqar Əliyevin həbsindən sonra Akif Çovdarov və ya iş yoldaşlarından kimsə sizə baş çəkirdi?***

- Yox, heç kim gəlmirdi. Min ilin dostları gəlib bizə salam vermirdilər. Qorxurdular ki, əlaqəni müəyyən edərlər. Vəzifədə olanlar xüsusən qaçır bizdən. İlqarın ətrafında olanlar atamın hüzrünə gəlmədilər. Bircə Mübariz müəllim gəldi. İlqarın hüzründə, gələ bilməmişdi, xəstə olmuşdu, amma gəlib başsağlığı verdi. Ümumiyyətlə isə bizim əxlaqımızı korlayıblar. 20 il bundan sonra da düzələn deyil. Dediklərimin qəzetdə olduğu kimi gedəcəyinə də inanmıram. Çünki hamıya tapşırıblar ki, bizim fikrimizi yazmasınlar. Siz də yazmayacaqsız.

***- Rəisi Elçin Quliyevlə münasibəti necə idi?***

- İlk gündən - işə girəndən bir yerdə işləyirdilər. O vaxtlar, İlqar işə girəndə rüşvət yox idi. Kişi kimi imtahan verib girmişdi.

***- Təhsili nə idi?***

- Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirmişdi. Uşaq vaxtı hüquqşünas olmaq istəyirdi. Elə oldu ki, şərqşünaslığa düşdü. Bəlkə də inanmayacaqsız, İlqar 4-cü sinifdə oxuyanda "Qara volqa"nı oxuyurdu. O vaxt belə idi ki, elə uşaqları qabağa çəkirdilər.

***- Qardaşınızın qabağa çəkilməsi olmuşdu?***

- Hə, belə bir söhbət olmuşdu. İlqar mənden 4 yaş böyükdür.

***- İlqar Əliyevin həyat yoldaşının onun ölümünün obyektiv araşdırmasını tələb etməsi xəbəri doğrudur?***

- Kimdən kimə şikayət edəcək? Səndən sənə şikayətim ola bilər? Kimdən kimə şikayət edəsən? Kim baxacaqdı şikayətə? Yəni oğlanlar vardı ki, İlqarın sağlığında heç məni qoymurdular ki, gedim onunla görüşüm. Onu az qala "kruq"a alırdılar. Dərdim-sərim olanda görüşürdüm, sözümü deyəndə ətrafındakılar hərəsi bir tərəfə çəkib "vaaay, müəllim, bunu bizə de" deyirdilər. İlqar həmişə Novruz bayramında kəndə gəlirdi. Bütün kəndi, bütün məhləsini yığırdı başına, yemək-içmək, böyük bir tonqal qalatdırırdı. Biri şeir deyirdi, biri mahnı oxuyurdu. İlqar çox gözəl insan idi.

***- Həbsdə olanda onunla telefonla danışırdız?***

- Mən danışmırdım, yoldaşı danışırdı. 10 dəqiqə vaxt verirdilər. Deyirdim qoy uşaqları ilə danışsın.

***- Neçə övladı qaldı?***

- İki uşağı var, oğlunun 5, qızının 14 yaşı var.

***- Ailəsinə təqaüd verilməsi ilə bağlı müraciətiniz olub?***

- Yox, olmayıb. Onun xidmətdə olmasının 20 ili 2016-cı ilin fevralında tamamlanacaqdı...

***- Deməli, 1996-cı ildən təhlükəsizlik orqanında işləyirdi?***

- Hə, 1996-cı ilin fevralından. Gözləyirdi ki, təqaüd yaşı çatsın. İstəyirdi ki, işdən bir qədər aralaşsın.

***- Nəsə problemi vardı?***

- Səhhəti də imkan vermirdi, iş də çox ağır idi. İlqar sutka ərzində 1 saat yatardı. İşlə bağlı vaxtı yox idi.

***- Səhhətindəki problemlər ciddi idi?***

- Şəkəri vardı. Bizdə nəsildə çoxlarında şəkər var. Atamda da, məndə də vardı. İlqar can qoydu, hüzrünə də gəlmədilər.

***- Ətrafında olanları deyirsiz?***

- Hə, saymadılar, yasa da gəlmədilər.

***- Umduğunuz şəxslər kimlər idi?***

- İş yoldaşları, rəhbərliyi.

***- Eldar Mahmudovu nəzərdə tutursuz?***

- Zəng də eləmədilər. Onların əmrlərini yerinə yetirmişdi də. Vəsatət də yazıb həbsinə ciddi şəkildə etiraz edirdi. Dərhal azad olunmasını istəyirdi. Məhkəmədə də bunu demişdi. Tələb etmişdi ki, onu azad etsinlər.

***- Niyə məhz ilk həbs olunanlardan biri İlqar Əliyev oldu? Bu haqda bir mülahizəniz, fikriniz varmı?***

- Hə, birinci onu tutdular. Bilmirəm niyə. Onu bilirəm ki, bu məsələ gec-tez açılacaq. Bildiyim odur ki, İlqar özünü asacaq qədər aciz deyildi. İndinin özündə də hər gün yuxuma girir. Zaman hər şeyi həll edəcək. Bundan artıq nəsə demək istəmirəm.

**"İşi çox ağır idi. Bütün agentlər bunun boynunda idi. O mərkəzdə 2 əsas adam var idisə, biri də elə İlqar idi. Hökumət üçün işləyirdi"**

❑ **E.MƏMMƏDƏLİYEV**



# Bizimkilərin kələkbazlıq coğrafiyası

**Samir SARI**

**O gün Rusiyanın İrkutsk şəhərində spirtli məhlul içərək ölənlərə dair "Antifris içənlərin sonu" başlıqlı bir yazı yazmışdım. O yazını yazanda mərhumların sayı 60-a çatmamışdı, 30 civarındaydı, həm də onların içdikləri məhlulun tərkibində metanol və antifrizin olduğunu bilmirdim. Sözgəlişi yazmışdım. Heç demə, zəhərli losyonda doğrudan da antifris varmış.**

Həmin yazıda belə bir abzas da vardı: "Rusiyadan gələn iki ayrı-ayrı xəbərdə insanların spirtli içkilərdən kütləvi şəkildə zəhərləndikləri deyilir. Biri bizimkilərin işidir, o birilərinin istehsalçıları barədə hələ xəbər yoxdur".

Bu sətirləri yazarkən Moskvada fransızların zəhərlənməsinə səbəb olan spirtli içkinin azərbaycanlılar (adları da qeyd olunurdu) tərəfindən hazırlanmış olması faktı artıq istintaq materiallarında da qeyd olunmuşdu. Amma İrkutskdakı qırğının müsəbbiblərinin ad-soyadı keçmirdi.

Ürəyimdə arzu edirdim ki, heç olmasa İrkutskda camaatı zəhərləyənlər ermənilər çıxalar və hesab 1:1 ola. Yoxsa bir-birindən 3-4 min kilometr aralıdakı iki ayrı-ayrı şəhərdə baş verən iki zəhərlənmə olayına azərbaycanlıların baiskar olması faktının altından qalxmaq çətin olardı.

Artıq qürur duyacağımız və ya xəcalət çəkəcəyimiz *(burası zövqə, qanacağa bağlıdır)* faktı yaza bilərəm. İrkutsk zəhərçiləri də azərbaycanlılar çıxdı. Abbasov soyadlı bir adammış, özü də bu saat Azərbaycandaymış.

Əslində Kaliningraddan Kuril adalarına qədər saxta araq istehsalı işində nəzarət-səhm paketinin bizimkilərin əlində olduğunu hələ 20 il öncədən bilən adamlara bu xəbər çox da təəccüblü görünməz.

Bu işlər belədir. Bizim Rusiyaya axışmış həmvətənlərimiz taciklər kimi əllərinə süpürgə götürüb küçə süpürmürlər, özbəklər kimi tikintidə can qoymurlar, gürcülər kimi oğurluq, evyarmaq işlərində boy göstərmirlər, ermənilər kimi hər oğraşlığa əl atmırlar, bizimkilərinki də budur: dükan-bazar ticarəti, iaşə obyektləri işlətmək, qeyri-leqal sexlərdə nəsə bir şey istehsal etmək, şəraitə görə fırıldaqçılıq və s..

Təbii ki, istisnalar da var. Yeni bizimkilərin içində bankirlərə, ali məktəb müəllimlərinə, iri biznesmenlərə, oğru və banditlərə, hələ desən, sutenyorlara da rast gəlmək olar. Amma bizim qastarbayterlərin ən populyar peşə sahələri o yuxarıda dediklərimdir.

Elə bu üzdəndir ki, bir ara Rusiyanın iri şəhərlərində azərbaycanlılara kirayə yaşamaq üçün ev vermirdilər. Çünki kriminala, əliəyriliyə meylli həmvətənlərimiz ümumilikdə millətin adını bədnam eləmişdilər və ev sahibləri də sonradan şahid-cavabdeh qismində istintaqa cəlb edilməmək üçün bu "qara millət"dən uzaq durmağı üstün tuturdu. Hələ kirayəyə götürülmüş evin bərbad günə qoyulması bir kənara dursun.

Söz yox, biz fərasətli camaatıq, daşdan pul çıxarmağı bacaran qövmük, amma qanundankənar işlərə, saxtakarlığa, kələkbazlığa meylimiz də artıq postsovet məkanında dillər əzbəridir.

Maşallah olsun ki, hazırda milli kələkbazlarımız MDB məkanındakı fəaliyyətlə kifayətlənmirlər, yavaş-yavaş Avropa məkanına da sızmağa başlayıblar. İndilikdə bir qədər azdırlar deyə, uyğun soraqları az gəlir, çoxaldıqca (bu temp var) Avropanı da heyrətləndirəcəyik.

Hələlik bizimkilərin bir hissəsi Avropada köhnə arvadlarını boşayıb, onun "tənha qadın" kimi dövlətdən müavinət alması işində uğurlar əldə edirlər. Almaniyada özlərini ev itinə qapdırıb təzminat davası açanlardan da yazmışıq. Bir daha yada salaq. Demək, Almaniyanın bir şəhərində məhkəmədə itqapma olayları ilə bağlı şikayətlərin kütləviləşməsindən şübhələnən hakimlər araşdırma aparıblar ki, şikayətçilərin onda doqquzu azərbaycanlılardır. O da aydın olub ki, bizimkilər sakit iti qəsdən cırnadır, özlərini cırmaqladıb, qapdırırlar, sonra da yiyəsini məhkəməyə verir, bir "Mersedes"in pulunu alırlar. İşi belə görən şəhər meriyası qərar çıxarıb ki, indən belə şəhərdə it qapan azərbaycanlı məhkəməyə müraciət edə bilməz.

İnşallah, bu yazıdan sonra o biri ölkələrdə yaşayan dürüst, vicdanlı soydaşlarımız milli kələkbazların millətimizin adını necə "ucaltdıqlar"ı barədə şərhlər yazarlar, oxuyub agah olarıq.

# Tanınmışlar 22 yaşında: biri qəzet qururdu, biri redaktor idi, biri əsgər...

## Azərbaycanlı tanınmışlar 22 yaşında nə ilə məşğul imiş?

**Ankarada sərgi salonunda keçirilən tədbir zamanı Rusiyanın Türkiyədəki səfiri Andrey Karlovu öldürən Mövlud Mert Altıntaşın 22 yaşı olması diqqət çəkib. Ümumiyyətlə, 22 yaş bir insan həyatında hansı dövrdür? Həmin yaş dövrünün psixologiyası nədir? Azərbaycanlı tanınmışlar 22 yaşında nə ilə məşğul imiş?**



Rauf Arifoğlu



İqbal Ağazadə



Vüsalə Mahirqızı



Elçin Şıxlı

**"Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu qeyd etdi ki, 22 yaşında hazırda baş redaktoru olduğu qəzetin əsasını qoyub:** "22 yaşında institutu bitirmişdim, mühəndis olaraq təyinatla Bakıya, elmi-tədqiqat institutuna gəlmişdim. Eyni zamanda məhz həmin ildə, 1988-ci ildə milli azadlıq hərəkatına qoşulmuşdum, Azərbaycanın istiqlalı uğrunda öz həyatımı nəzir deyərək bir fərd kimi mücadiləyə qatılmışdım. Proses boyunca həm də torpaqların müdafiəsi uğrunda könüllü birliklərin qurulması sürəcinə qatıldım. Eyni zamanda kommunist rejimi, sovetlər əleyhinə kiçik məqalələr yazmaqla mətbu fəaliyyətimə başlamışdım. Məhz həmin yaş dövründə, 22 yaşımdan 23-ə keçid edərkən "Yeni Müsavat" qəzetinin qurulması prosesinə başladım. Ondan əvvəl də gizli dərgilərin, məqalələrin çap olunub yayılması prosesi ilə məşğul idim. Həmin dövrdə bugünkü "Yeni Müsavat" qəzetinin əsasını qoymağa başlamışdım. Mənim 22 yaşım bununla yadda qalıb".

**Sorğumuzda iştirak edən Ümid Partiyasının sədri İqbal Ağazadə 22 yaşında torpaqlarımızın qorunması uğrunda savaşdığını bildirdi:** "Mənim 22 yaşım milli azadlıq hərəkatının başladığı, eləcə də torpaqlarımız uğrunda savaşın getdiyi illərə təsadüf edirdi. Əlimizə silah alıb vətəni müdafiə edirdik".

**"APA Holdinq"in prezidenti Vüsalə Mahirqızı isə 22 yaşında baş redaktor olduğunu açıqladı:** "Mən 22 yaşında gündəlik nəşr olunan "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru idim".

**Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı 22 yaşında hərbi xidmətdə olub:** "Bu yaş insanın həyata qədəm qoyduğu dövrdür. Mən 22 yaşımda ali məktəbi bitirib əsgərlik çəkirdim".

**Bakipost.az saytının rəhbəri Elçin Zahiroğlu 22 yaşında özünə qarşı terror hesab edilə biləcək bir qərar verdiyini qeyd etdi:** "Şəxsən mənim üçün 22 kritik yaş olub. Belə demək mümkünsə, özümə qarşı "terror" etmişəm. 22 yaşım olanda "525-ci qəzet"də işləyirdim, ali məktəbi təzəcə bitirmişdim. Birdən hər şeyi dəyişdim, şəhərin mərkəzindən ucqar bir kəndə dərs deməyə getdim. Qərarımı çox anidən vermişdim. Hardansa eşitdim ki, o kənddə 20 ildir, ali məktəbə qəbul olan yoxdur.

Düşündüm, gedim, bir-iki il əziyyət çəkim, kimsə ali məktəbə daxil olsun, kəndin qapısı ali məktəblərə, şəhərə açılsın. Yalnız yay aylarında yolu işləyən, qalan vaxtlar hər yerlə əlaqəsi kəsilən, heç bir məşğuliyyəti olmayan, dağların başında sıldırım qayalarla əhatələnmiş bir kənd... Şəraitsiz, yalnız odun sobaları ilə qızdırılan evlər, adamı kəsən soyuq... İşıq belə yox idi, qazdan, internetdən isə söhbət gedə bilməzdi. Heç mobil telefon da işləmirdi. Məncə, şəhərin mərkəzini, qaynar həyatı, perspektivləri buraxıb, belə bir yerə getmək elə özünə qarşı terror etmək kimi bir addımdır. Və bu addımı heç kim başa düşmədi. Hamı sadəcə təəccüb içində, mənə dəli adam kimi baxırdı".

**Tanınmış telejurnalist İlhamiyyə Rza isə 22 yaşında təhsil aldığını və mətbuatla əməkdaşlığa başladığını bildirdi:** "Mən 22 yaşımda universitetdə təhsil alırdım. "Molodyoj Azerbaydjana" qəzeti ilə əməkdaşlıq edirdim, gələcəyimi qurmağa çalışırdım. Milli azadlıq hərəkatının başladığı illər idi və mən mitinqlərə gedirdim. Həmin yaşda təhsilimi başa vurub dövlət televiziyasında müxbir işləməyə başlamışdım. Qanlı Yanvar olayları baş verəndə televiziyada işləyirdim. Kifayət qədər yetkin bir insan idim, nə istədiyimi, nə etdiyimi aydın bilirdim. Ağı qaradan seçirdim".

Sorğumuzda iştirak edən tanınmışların cavablarından da aydın oldu ki, bu gün cəmiyyətdə uğur qazanan insanlar bunun təməlini məhz həmin yaş dövründə atıblar. Yəni 22 yaş insan həyatında önəmli bir dövrdür.

**Psixoloq Azad İsazadə də hesab edir ki, bu yaşda insanlar daha maksimalist olur. Məqsədin yaxşı və ya pis olmasından asılı olmayaraq onun uğrunda fədakarlıq etməyə hazırdır:** "İnsan nə qədər gəncdirsə, bir o qədər maksimalistdir. Yeniyetmə yaşlarında insan həyatı iki rəngdə görür. Onun üçün hər şey ya qaradır, ya da ağ. Əgər o, kimisə qara qüvvə hesab edirsə, mənfi hesab edirsə, ona qarşı qəddar olur. Gənc yaşlarda bizim hamımızda empatiya- əks tərəfin ağrısını hiss etmək bacarığı az olur. Ona görə də uşaqlar rahatca heyvanlara işgəncə verə bilirlər, çünki o ağrını, qəddarlığı anlamırlar. Belə hallara 20-22 yaşında da rast gələ bilərik. Yaş artdıqca insan müdrikləşir. Özümüz həyatda hansısa ağrılar keçiririk və digər insanları da anlamağa başlayırıq. Yaş həm də ideoloji təsirə malikdir. Bu yaşda fanatiklik daha çox olur. İnsan müdrikləşəndə isə istənilən ideologiyanı təhlil edir, qiymətləndirir. Ona görə də həmin gəncin bu yaşda belə bir addım atması o qədər də təəccüblü deyil.

Müsbət mənada baxsaq, 20 və 30 yaş arasındakı dövr insanın həyatında çox önəmlidir mərhələdir, bu zaman böyük bir insanın, şəxsiyyətin formalaşması prosesi gedir. Biz başlayırıq həyatı fərqli şəkildə dərk etməyə, 20 və 30 yaş arasında insan 20 yaşına qədər onda formalaşan hansısa ideyaları, təhsili, karyeranı və sairi həyata keçirməyə çalışır. Vaxtının önəmli bir hissəsini də buna sərf edir. Bu, karyera da ola bilər, mənfi bir ideologiya da ola bilər".

**❑ Nərgiz LİFTİYEVA**

**124 min peyğəmbərin sırasında Zərdüştün yeri, sözsüz ki, siyahıda ən yuxarı sətirlərdədir. İndiyədək onun adı daha çox müqəddəs Avesta kitabı ilə qoşa, sinxron çəkilib. Lakin Zərdüştün irsi təkcə elə bu kitabla məhdudlaşmır. Zərdüştün günümüzədək gəlib yetişmiş zəngin mirasına, həm də onun hazırladığı çox dəqiq astroloji təqvim də daxildir.**





# Azərbaycanda doğulduğu deyilən peyğəmbərin sirli təqvimi

## Günəş şəhərinin möcüzəsi və Zərdüştlük haqda bilmədiklərimiz; rus astroloq Pavel Qlobanın hər il yayılan proqnozları hansı mənbələrə söykənir?

***

Orta əsr ərəb məxəzləri Zərdüştün mənşəyi, doğum yeri barədə tərəddüd etmədən eyni fikri bölüşürlər - o, Azərbaycanda dünyaya göz açıb. Əl-Biruni də bu fikirdədir, əl-Bəlazuri, əl-Qəzvini, əl Həməvi də. Avestanın ən qədim parçası sayılan "Qat"larda deyilir ki, Zərdüşt Turan tayfaları ərazisində doğulub. Sonradan vətənini tərk edərək Viştasp adlı bir hökmdarın məmləkətinə sığınıb. Uzun zaman onun himayəsi altında fəaliyyət göstərib.

Beləliklə, ulu Zərdüşt məhz Azərbaycan peyğəmbəridir. Yəni belə deyək - Azərbaycan da peyğəmbərlər ölkəsi sayıla bilər. Peyğəmbərlər isə bildiyimiz kimi, heç vaxt öz vətənlərində qəbul edilmirlər. Bu acı tale Zərdüştü də təqib edir. 30 yaşında Zərdüşt bir sıra silahdaşlarının əhatəsində *(onların sırasında qadınlar da varmış)* Eran-Vedjo adlı müqəddəs bir şəhərə yollanır.

Həmin şəhər vaxtilə əfsanəvi Cəmşid tərəfindən xüsusi plan əsasında inşa edilibmiş. Soyuq qış şaxtalarından qorunmaq naminə ən nümunəvi insanlar, heyvanlar, bitki növləri və sair və ilaxır məhz bu uzaq ünvanda qorunub saxlanırmış. İndiki dillə desək, görünür, bura bir növ buğda, cins, toxumluq, damazlıq mərkəziymiş. Orda, güman ki, həm də öz dövrü üçün ən mükəmməl rəsədxana da yerləşirmiş.

Zərdüşt peyğəmbər məhz həmin rəsədxanadan istifadə edərək öz mükəmməl astroloji təqvimini hazırlayır. Uzun illər sürən araşdırmalardan sonra alimlər həmin bu rəsədxananı indiki Rusiyanın Çelyabinsk vilayətində, Arkaim şəhərciyində aşkarlayırlar.

Şəhər çox qəribə plan əsasında tikilib. Əslində bu, dairəvi Günəş şəhəri, canlı rəsədxanadır. Günəşin səmadakı səyahəti, bu şəhərin qurulusunda dəqiq ölçülərlə təkrarlanır - millimetrlərə qədər. Burda şəhərlə rəsədxana arasında fərq itir.

Belə mükəmməl dairəvi sxemləri, naxışları, gəlin, insan əməyinin məhsulu bilməyək. Adətən yaz, yay aylarında bu cür düzənlik ərazilərdə səhər vaxtları "kürəvi ildırım" adlanan möcüzəli təbiət fenomeni hərəkət edir. Torpaq, yaxud taxıl, əkin zəmiləri üzərində mükəmməl naxışlar həkk edir. Nəinki Zərdüşt zamanları, elə indi də oxşar naxışlar, bir də görürsən, hansısa bir əkin sahəsi üzərində aşkarlanır. Başlayır camaat arasında min-bir şayiə yaratmağa. Həmin dairələrin ortasındakı buğda sümbülünün keyfiyyəti həmişə kənardakılardan üstün olur. Alimlər bunu təbii seleksiya nümunəsi bilirlər.

Belə naxışların biri üzərində əfsanəvi şah Cəmşid, bayaq adını çəkdiyimiz günəş şəhərini - Arkaimi inşa edir. Bu cür şəhərlərə qədimdə Təxti-Cəmşid deyərmişlər. Şəhər, göydəki günəşin hərəkət trayektoriyasını özündə tam əks etdiyindən əsl rəsədxana imiş.

Belə dairəvi Günəş şəhərləri o vaxtkı Orta Asiya, Güney Ural ərazisində bir deyil, iki deyildi. Qədim türklər bu cür dairəvi şəhərlərə "qazan" deyərlərmiş. İndiki Tatarıstanın paytaxtı Qazan şəhərinin adı da məhz həmin sirlə əlaqədardır. Dövrün bir çox alimləri, o cümlədən, ulu Zərdüşt, məhz bu cür oxşar ünvanlarda göy cisimlərini müşahidə edirdilər.

Bütün bunların son nəticəsi kimi, ortaya Zərdüşt təqvimi çıxır.






***

Zərdüştlüklə bağlı olan nə varsa, indi xalqımızın alt şüuruna hopub. Yəni biz indi, bu gün nə Avestaya bələdik, nə də ki, qədim zərdüştlük ayinlərinə. Ancaq Zərdüşt təqvimindən indi də istifadə edirik. Xüsusən Novruz bayramının dəqiq vaxtını təyin edərkən, məhz bu təqvimdən yararlanırıq.

Heyf biz bu mükəmməl təqvimi, deyəsən, azca unutmuşuq. Halbuki öncəgörmələr baxımından həmin təqvimin tayı-bərabəri yoxdur. Müasir Rusiyanın bir nömrəli münəccimi sayılan aysor mənşəli Pavel Qloba gələcək barədə öz proqnozlarını məhz bu təqvimə əsaslanaraq irəli sürür. İndi Rusiyada elə bir sanballı mətbuat orqanı yoxdur ki, orda Pavel Qlobanın astroloji proqnozları verilməsin.

Bu təqvim 32 ili əhatə edən xüsusi qərinələrə bölünür. Hər il bir heyvanın xassələrini özündə cəmləyir. Məsələn, martın 21-dən etibarən Dəvə ili başlayır. Gəlin görək, dəvə bu təqvimdə hansı dəyərlərin daşıyıcısıdır ?

Əvvəla, dəvə uca Allahın yaratdığı ən nümunəvi səyyahdır. Skeptikdir. Yumor hissinə malikdir. İnadkardı. Tam müstəqil və avtonom şəkildə yaşayıb ən ağır imtahanlardan uğurla çıxmağı bacarır. Bütün bunlar isə üzümüzə gələn dəvə ilində bizlərə gülüş, qəhqəhə, səfər turları, səbr, mümkün maneələri dəf etmək, irəli atılmaq kimi bir çox müsbət xüsusiyyətlər vəd edir. Yəni dəvə ilində gərək gəzəsən, qənaətcil olub aza qane olasan. Dəvə rəmzi həm də daim irəli baxmaq, irəliləmək hissləri ilə əlaqədardır. Yəni bu il biz gərək keçmişə çox da aludə olmayaq. Keçmişdən sakitcə qopub irəli baxmağı bacarmadınsa, heç nə. Demək, səni 2017-ci ildə müsbət nəticələr qətiyyən gözləmir.

Dəvə - zahiddi. Əmrə tabedi. Ətrafındakılara zərər vurmaz. Əksinə, kömək edər həmişə. Natarazdı. Lətifədə deyildiyi kimi, bədənində bircə düz yeri olmasa da, getdiyi yollar həmişə doğru-dürüstdü.

1921, 1953, 1985-ci illər Zərdüşt təqvimində Dəvə illəri sayılır. Beləliklə, biz bu il 1921, 1953, 1985-ci il hadisələrini yenidən, ancaq tərs versiyada yaşaya bilərik. Yəni Nəriman Nərimanovun məlum vəsiyyəti, vətəndaş müharibəsinin sonu, Stalinin vəfatı, Beriyanın qətli, yenidənqurmanın isti nəfəsi, bir başqa şəkildə bizləri təqib edəcək, görəcəksiz, üzümüzə gələn 2017-ci ildə.

Zərdüşt təqvimində hər bir rəmzin tam tərs qarşılığı da mövcuddur. Yəni sən əgər Dəvə ilində bu rəmzin qanunları ilə yaşamasan, özündən küs. Bil ki, belə halda əks rəmzin - Qaraqurd rəmzinin təsiri altında yaşamağa məhkumsan. Qara qurdun zahirən hörümçəklərə oxşamağı qoy sizi aldatmasın. Qara qurd hörümçəklərdən fərqli olaraq özünə tor toxumur. Düşdünmü bu rəmzin ağır çəkisi altına, evsiz-eşiksiz qalıb künc-bucaqlarda çürüyəcəksən? Unutmayın, qədim türklər, dəvə yunundan toxunmuş çadırlarda yaşayarkən bütün bunları səribaşdan nəzərə almışdılar. Çünki dəvə yunu, keçə xalılar hər cür həşəratın, o cümlədən qara qurdların təbii qənimidir. İlişdilərmi dəvə yununa, vəssalam, qanları getdi. Çapalayıb, çapalayıb axır taleyin hökmünə baş əyəcək, ilişdikləri yerdə qəfil birdən hərəkətsiz qalacaqlar.

***

Yenidənqurmanı elan etmiş 1985-ci il tarixi üzərindən düz bir qərinə - 32 il keçdi, nəhayət. Təkər geri hərləndi. Proses tərsinə axmağa başladı elə bil.

***

Yadda saxlayın, Zərdüştə görə, bu il dəvə kimi zəhmətkeş olmayanları qara qurda çevrilmək təhlükəsi gözləyir. Qara qurdların qənimi isə dəvə tükündən hörülmüş türk çadırlarıdır

Odur ki, ehtiyatlı olun.

***

İlin sonunda adətdi, Rusiya mətbuatının baş münəccimi, məşhur astroloq Pavel Qloba, bizim Novruz təqviminə söykənən növbəti ənənəvi öncəgörmələrini elan edir. Rusiya mətbuatının paylaşdığı yüksək tirajlı bu astroloji proqnozları oxusan, elə bilərsən Pavel Qloba "Sehirli xalat" filmindəki saqqalı seyrək münəccimlə eyni bezin qırağıdır.

Filmdəki "Qüdrətli Kreml sahibləri! Göyün yeddinci qatında Çəyvan, Ütəriyyə, Mürrix, Müştəri və nəhayət, Nahid ulduzları təxti-tacımıza, hökmdarımıza qarşı qorxulu vəziyyətdə donub qalıblar!" nidasını təkrarlayaraq hamının diqqətini özünə cəlb etmək istəyən Pavel Qloba həmin proqnozlarında münəccimdən çox siyasi texnoloqları xatırladır. İddia edir ki, Avropa Birliyi heç vaxt indiki kimi dağılmağa yaxın olmayıb. Deyir, Britaniyadan sonra Hollandiya da AB-nin batan gəmisini tərk edəcək. İddia edib ki, Qazaxıstan, Qırğızıstan, Ermənistan, Azərbaycan, Belarus, Ukraynanın böyük hissəsi guya gələn il RF ilə birləşmək istəyəcək. Ancaq guya Rusiya, başda Putin olmaqla, özü indi oxşar ittifaqların əleyhinədir.

**Proqnozu oxuyub bilmədim Pavel Qloba bu öncəgörmələri səma cisimlərindən eşidib, yoxsa üzərindəki Kreml ulduzlarından.**

❑ **Həmid HERSÇİ**

YENİ MÜSAVAT
N 285 (6606) 22 dekabr 2016

**Son günlərdə Avropadakı miqrantlar məsələsi yenidən müzakirə obyekti olub. Buna səbəb Berlində təşkil olunan Milad bazarında törədilən dəhşətli faciə və İtaliyada bir mühacirin Yeni il yolkasını dağıtmasıdır.**

# Avropa dövlətləri hərəkətə keçir-miqrantlar qovula bilər



## Qabil Hüseynli: "Miqrant problemini terrordan sonra ən təhlükəli problem sayırlar"

Ümumilikdə son bir ildə Avropada baş verən əksər faciələr mühacir müsəlmanlar tərəfindən törədilib. Bu da xristian dünyasının əlinə müsəlmanlara qarşı siyasət yürütmək üçün əsaslar verib. Artıq miqrantların Avropadan qovulacağı ilə bağlı fikirlər səslənməkdədir. Təsadüfi deyil ki, xristian ölkələrində keçirilən seçkilərdə hakimiyyətə gəlmək istəyən qüvvələr daha çox bu faktordan istifadə edirlər, yəni təmsilçiləri olduqları ölkələrdən miqrantları çıxaracaqları ilə bağlı təbliğatlar aparırlar, bu da sonucda onların qələbələrini reallaşdıran səbəblərdən biri olur. Çünki yerli əhali bu cür fikirləri daha çox dəstəkləyir. Amerikada ötən ay keçirilən seçkilərdə Donald Trampın müsəlmanlar, miqrantlarla bağlı çıxışları da onun prezident seçilməsində mühüm faktor oldu.

Xüsusilə miqrant ərəblərə qarşı Avropada antipatiya yaranıb. Onların davranış tərzləri, Avropa mədəniyyətinə uyğunlaşa bilməmələri bu cür fikirlərin formalaşmasına səbəb olur.

**Politoloq Qabil Hüseynli son vaxtlar Avropada miqrantlara qarşı münasibətin daha da pisləşdiyini qeyd etdi:** "Sağ təmayüllü partiyalar miqrantların əleyhinə şüarlar səsləndirə-səsləndirə, xalqı antimiqrant əhval-ruhiyyəsinə kökləyə-kökləyə həm səslər yığırlar, həm də əhali ilə miqrantlar arasında qarşıdurma yaradırlar. Hökumətlər də çıxılmaz vəziyyətdə qalıblar. Bir tərəfdən öz xalqlarının təzyiqi, o biri tərəfdən isə miqrantların qanunları əllərində tutaraq, Avropada yerləşməyə çalışmaları və onların yaratdıqları problemlər çətin vəziyyət yaradıb. Berlindəki hücum, digər terrorlar heç bir dinə sığışmayan hərəkətdir. Yenə də Almaniyada əfqanıstanlının qatara girərək, insanları baltalaması, suriyalıların ilin əvvəlində Köln şəhərində qadınlara hücum etmələri və onlara qarşı namussuz hərəkətlərə yol vermələri onu göstərir ki, şüur və mədəniyyət etibarı ilə Avropaya gələnlər ora nə uyğunlaşa, nə də inteqrasiya edə bilirlər. Yerli qayda-qanunlara adaptasiya oluna da bilmirlər. Miqrantlar həm dili öyrənməkdə tənbəllik edirlər, həm də işləməyə, cəmiyyətdə yer tutmağa meylli olmurlar. Avropanın öz mədəniyyətini, ölkəsindəki qayda-qanunları qorumağa haqqı var. Qoca qitənin öz miqrantlarını başqa ölkəyə, eləcə də başqa ölkənin miqrantını öz ərazisinə buraxmamasında məntiq tapmaq mümkündür. Hökumətlər artıq miqrantlarla bağlı qanunları sərtləşdirirlər. Yalnız dili bilən, Avropa mədəniyyətinə uyğunlaşan insanların orada qalmalarına icazə verirlər. Yerdə qalanlar isə dələduzluq edərək, dələduzların yardımı ilə Avropada rahat həyat axtarışına çıxırlar. Onları təmənnasız vizalarla təmin edirlər, müavinətlər verirlər. Nəticədə bu miqrantlar bir neçə il Avropada yaşaya bilirlər. Sonra isə cızıqlarından çıxaraq, olduqları ölkələrdə İslamın zəif olması, yaxud olmaması kimi məntiqə sığmayan etirazlar edirlər".

**Politoloq miqrant probleminin yaranmasında Avropanın özünün də günahı olduğunu vurğuladı:** "Avropanın müstəmləkə siyasətinin izlərinin qalmasının da miqrantlarda bu cür əhval-ruhiyyənin yaranmasına səbəb olan amillərdən biri olduğunu söyləmək mümkündür. Yerli əhaliyə qarşı belə münasibət sərgiləmək, qayda-qanunlara əməl etməmək sonda miqrantların ya həmin ölkələrdən çıxarılmasına səbəb olur, ya da gələcəkdə buna səbəb olacaq. Hazırda Avropada miqrant problemini terrordan sonra ən təhlükəli problem sayırlar. Belə hesab edirlər ki, terror sayının artmasına səbəb miqrant axını, onların Avropa ölkələrində yerləşmələridir. Onlar ya miqrantların ölkədən çıxarılması yollarını arayırlar, ya da hökumət səviyyəsində bunu edirlər. Avropa belə hesab edir ki, ona İslam şüurunu daşıyan, özündə Avropa mədəniyyəti ilə qarşıdurma yaradan baxışların daşıyıcıları lazım deyil. Miqrantların özlərinin qanunazidd hərəkətləri, ölkənin qayda-qanunlarına uyğunlaşa bilməmələri, cəmiyyətə demək olar ki, inteqrasiya etməkdə çətinlik çəkmələri, cəmiyyətlə qarışıb-qaynaya bilməmələri, yerli əhalidə ikrah hissi oyadan hərəkətlərə yol verməleri bu problemləri yaradır. Bu da antimiqrant əhval-ruhiyyəsinin formalaşmasına səbəb olur".

❑ **Cavanşir ABBASLI**

# Netanyahu gəlib-getdi, İsraildə səfirliyimiz açılacaqmı?

## Ekspert: "Bu, vaxta bağlı bir məsələdir və öz həllini yəqin tapacaq"

**"Azərbaycan və Qazaxıstan müsəlman dünyasının vacib və böyük ölkələridir" deyən İsrailin baş naziri Benyamin Netanyahu Bakıya səfərindən sonra da ölkəmiz haqqında yüksək fikirlər səsləndirdi. 20 illik fasilədən sonra Azərbaycana ikinci dəfə səfər edən İsrail hökumətinin başçısının mövqeyindən bəlli oldu ki, Tel-Əviv Bakı ilə münasibətləri ən yüksək səviyyəyə çatdırmaqda maraqlıdır.**



Benyamin Netanyahu

İsrailin Azərbaycana verdiyi hərbi dəstəyin məntiqi nəticəsi elə bu ilin aprelində çoxlarını həyəcanlandırdı. Azərbaycan rəhbərliyi də İsraillə 5 milyardlıq hərbi əməkdaşlığın davam etdiriləcəyini dedi. Ancaq Azərbaycanın indiyə qədər İsraildə səfirlik açmaması suallar doğurur. Hansı ki, İsrailin Bakıdakı səfirliyi müstəqilliyimizin ilk illərindən fəaliyyətdədir.

Gələn il isə iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 25 ili tamam olacaq. Bu mənada yəhudi və Azərbaycan xalqlarının dostluq və səmimi münasibətlərini daha da yüksək səviyyəyə qaldırmağa xidmət edəcək növbəti addımın atılması faydalı hesab olunur. Düzdür, bu məsələyə İranın təpkili reaksiya verə biləcəyi də nəzərə alınır. Ancaq İsrailin baş nazirinin Bakı səfərindən sonra İran prezidentinin İrəvanda ermənilərə "əbədi dostluq" vəd etməsi Azərbaycanı növbəti addımlar atmağa sövq edə bilər.

Xatırladaq ki, müsəlman ölkələrindən Türkiyə, Qazaxıstan, Misir və İordaniyanın İsraildə səfirlikləri fəaliyyət göstərir. İsrailin də Türkiyə, Misir və İordaniyada səfirliyi var. Müşahidəçilər hesab edir ki, Bakının Tel-Əvivdə səfirlik açması məsələsi İranın növbəti davranışlarından asılı ola bilər.

**Politoloq Arzu Nağıyev təsdiqlədi ki, Azərbaycanın müstəqilliyini ilk tanıyanlardan biri məhz İsrail olub və 1993-cü ildən İsrailin bizim ölkədə səfirliyi fəaliyyət göstərir:** "Azərbaycanın isə İsraildə səfirliyi yoxdur. Bu, o demək deyil ki, bizim diplomatik fəaliyyətimiz və ya iqtisadi əlaqələrimiz yoxdur. İsrail Azərbaycandan ən çox neft idxal edən ikinci dövlətdir. Bundan başqa, Bakı-Tel-Əviv marşrutu ilə 1993-cü ildən əlaqələr var. Silah və hərbi avadanlıqlarla bağlı müqavilələrimiz də milyard dollarla ölçülür. Yəni səfirliyin olmaması, göründüyü kimi, iki dövlət arasında nə siyasi, nə də iqtisadi problemlər yaratmır. Sadəcə olaraq, müsəlman və daha doğrusu, ərəb dünyası və İranla bir balans saxlanılır və bu da təbii ki, əsas səbəb deyil".

**A.Nağıyev əmindir ki, bu, vaxta bağlı bir məsələdir və öz həllini yəqin tapacaq:** "Misal üçün, Türkiyə və İsrail 1991-ci ilə qədər səfirliklərlə təmsil edilməmişdilər - baxmayaraq ki, 1949-cu ildən hərtərəfli əlaqələri mövcud idi. Yəni Türkiyə də müsəlman dünyası ilə sıx əlaqəli dövlətdir və Azərbaycanla bir yerdə İsraillə ən yaxın əlaqələri olan azsaylı ölkələrdəndir. Mədəni əlaqələrə gəldikdə isə Azərbaycanda min illərlə yəhudi icması mövcuddur və onların da İsraildə yaşayan yaxın qohumları ilə əlaqələri yüksək səviyyədədir, Milli Məclisdə təmsil olunurlar. Yəni İsrailin də Azərbaycanda öz maraqlarını, lobbiçilik siyasətini həyat keçirə biləcək imkanları var və əksinə. Təbii ki, Netanyahunun səfərindən sonra bu proses daha da genişlənəcək və İran və ya digər dövlətlər Azərbaycanın daxili və xarici siyasətini həyata keçirməkdə maneə ola bilməz".

❑ **Cavìd TURAN**

# Avropada yeni terror dalğası gözlənilir

## Ekspert: "Əsas məsələ hüquq-mühafizə və xüsusi xidmət orqanlarının üzərinə düşür ki, bu məsələni çözə bilsinlər"

**Ötən il olduğu kimi, bu il də Avropada Yeni il öncəsi terror təhlükələri gözlənilir. Ekspertlər hesab edirlər ki, terror dalğası artıq başlayıb. Belə ki, üç gün öncə Berlində təşkil olunan izdihamlı Milad bazarına yük maşınının girməsi nəticəsində 12 nəfər ölüb, 48 nəfər yaralanıb. Almaniya polisi hadisəni "mümkün terror hücumu" kimi araşdırır.**



Arzu Nağıyev

Amerika da vətəndaşlarına Avropada terror təhlükəsi ilə bağlı xəbərdarlıq edib. ABŞ Dövlət Departamenti öz vətəndaşlarına bütün Avropa qitəsi ərazisində yüksək terror hücumu riskinin olması barədə xəbərdarlıq edib. Bu barədə xarici siyasət idarəsinin yaydığı bəyanatda bildirilib: "Dövlət Departamenti Amerika vətəndaşlarına Avropa ərazisində, xüsusilə də bayramlar zamanı yüksək terror hücumu risklərinin olması barədə xəbərdarlıq edir. Etibarlı məlumatlara görə, İŞİD, "əl-Qaidə", həmçinin onların filialları Avropada terror aktları planlaşdırmaqda davam edirlər", - deyə məlumatda qeyd olunub.

**Ekspert Arzu Nağıyev "Yeni Müsavat"a bildirib ki, belə bir vəziyyətdə təbii olaraq ölkə səfirlikləri öz vətəndaşlarına terrorla bağlı xəbərdarlıqlar etməlidir:**

"Avropada o qədər yoxlanmamış miqrantlar var ki, heç bir sığortadan danışmaq mümkün deyil. Ona görə də xüsusi xidmət orqanları bütün riçaqlardan, vasitələrdən istifadə etməlidir ki, terrora qarşı mübarizəni gücləndirsinlər. Vaxtilə miqrant kütləleri gələn zaman hətta bu barədə xüsusi xidmət orqanlarına öncədən xəbərdarlıq olunmuşdu ki, onlara qarşı filtirasiya tədbirləri aparılmalıdır. Lakin onların zəifliyi nəticəsində xeyli günahsız insanlar qətlə yetirildi. Nəzarətsiz, dəfələrlə həbs olunmuş və terrorçularla əlaqəsi olan şəxslərin üzə çıxarılmaması bu cür hadisələrə gətirib çıxardı. Ona görə də hər bir ölkənin öz vətəndaşlarına xəbərdarlıq etməsi mütləq lazımdır. Terror təhlükəsindən heç bir dövlət sığortalanmayıb. Əsas məsələ hüquq-mühafizə və xüsusi xidmət orqanlarının üzərinə düşür ki, bu məsələni çözə bilsinlər. Problem böyükdür. Nə qədər ki, ərəb dövlətlərində antiterror əməliyyatları, eyni zamanda dünyanın bir sıra dövlətlərinin koalisiya yaradaraq o ərazilərdə, Əfqanıstanda mübarizəsi davam edir, bu koalisiyaya qoşulan Rusiya və digər dövlətlər də bunun iştirakçısıdır, terrorla mübarizədə hərtərəfli addımlar atılmalıdır".

❑ **Əlì RAÌS**

**Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son fikirləri gündəm olub. Ter-Petrosyan bildirib ki, Qarabağ münaqişəsi həll olunmadan Ermənistan və Qarabağ erməniləri üçün heç bir inkişaf perspektivi ola bilməz. O, konfliktin yalnız mərhələli həll variantının real olduğunu da deyib.**

# Ter-Petrosyanın fonunda erməni müxalifətinin mövqeyi bəlli - bəs ölkə müxalifəti?



**Pənah Hüseyn:** “Müxalifət bu məsələdəki mövqeyini təsdiqləyib”



**Sabir Rüstəmxanlı:** “Ermənistan yenə də həmin mövqeyə gələcək”



**Əli Əliyev:** “Problemə münasibətimiz İrəvandan qaynaqlanmamalıdır”

Təcavüzkar ölkənin müxalifətinin münaqişə ilə bağlı yanaşması bu cürdür. Maraqlıdır, bəs Azərbaycan müxalifəti hazırkı durumda ən ağrılı problemimizlə bağlı nə düşünür?

**Keçmiş baş nazir, AXP sədri Pənah Hüseyn** bildirdi ki, Azərbaycan müxalifəti daim Qarabağ probleminin həlli yolları ilə bağlı mövqeyini ortaya qoyub: “İndinin özündə də müxalifət təklifləri, o cümlədən aprel döyüşləri vaxtı ortaya qoyduğu mövqeyi ilə özünün bu məsələdəki yanaşmasını təsdiqləyib. Azərbaycanın torpaqları qeyri-şərtsiz azad olunmalıdır. Hakimiyyətdə hansı siyasi qüvvənin, yaxud kimin prezident olub-olmamasından asılı olmayaraq, işğal olunmuş torpaqların azad olunması əsas vəzifəmiz olmalıdır. Hökumət torpaqların azad olunması istiqamətində hansı addımları atacaqsa, müxalifət olaraq buna tam dəstək verməyə hazırıq. Aprel döyüşlərində belə bir dəstək Azərbaycan müxalifəti tərəfindən olunub. Bundan öncə dəfələrlə müxalifət Dağlıq Qarabağla bağlı konkret proqramlarla çıxış edib. Görünən odur ki, bu münaqişənin həll olunmamasına çalışan qüvvələr Azərbaycanın daxili vəziyyətindən də istifadə edirlər. Bunlardan biri də Azərbaycanda demokratik cəmiyyətin formalaşmasının hələ də başa çatmamasıdır. Ermənilərin belə bir cəmiyyətdə yaşamalarının qeyri-mümkünlüyü barədə cəfəng fikirləri xaricdə formalaşdırmağa çalışırlar. Əvvəllər də Ter-Petrosyanın münaqişənin nizama salınması ilə bağlı fikirləri olub. Aprel döyüşləri vaxtı da hətta bu arqumenti irəli sürdülər. Azərbaycan bu amildən düşmənin istifadə etməsinə imkan verməməlidir. Onların da hansı cəmiyyətdə yaşadıqları məlumdur. Amma bununla belə, Azərbaycanda milli həmrəylik olarsa, hakimiyyət cəmiyyətə, siyasi rəqiblərinə, yəni müxalifətə qarşı uzun illər apardığı siyasətini dəyişərsə, bu, iddialar puç olar. Ölkəmizdə fundamental islahatlar aparılarsa, bu Dağlıq Qarabağ probleminin həllinə ən müsbət töhfələrdən birini verər. Nəticə etibarilə Azərbaycan ordusu öz sözünü deməlidir. Azərbaycan müxalifəti ordunun, müdafiə qabiliyyətinin gücləndirilməsini həm tələb edir, həm də bu istiqamətdə görülən işləri müdafiə edir”.

**VHP sədri, xalq şairi Sabir Rüstəmxanlı hesab edir ki, apreldəki 4 günlük savaş bir çox məsələlərə aydınlıq gətirdi:** “Azərbaycan ordusunun gücü, dövlətin torpaqlarını azad etməkdə israrlı olduğu apreldə sübut olundu. Xalqın əzmi, müharibəyə hazır olan gənclərin mövqeyi bir neçə gün ərzində göründü. Məlum oldu ki, millət həmin millətdir. Eyni zamanda bir sıra dünya dövlətlərinin ”müharibəni durdurun" çağırışları səsləndi. Minsk Qrupu və digər ölkələrin Dağlıq Qarabağ və ətraf rayonların ermənilərə verilməsi fikirləri ilə razılaşdıqları açıq şəkildə göründü. Suallar artıq açıq qoyulmalıdır, siz nə istəyirsiniz? İstəyirsiniz ki, bu münaqişə davamlı olsun? Əgər beynəlxalq aləm ədalətə, tarixi ənənələrə söykənirsə, o zaman torpaqlarımız dərhal geri qaytarılmalıdır. Buna imkan vermirsinizsə, o zaman torpaqların müharibə yolu ilə azad olunmasına da mane olmamalısınız. Diplomatik yolla mümkün deyil, Azərbaycan sonunda ərazilərini azad etmək üçün vuruşmalıdır. Bunun üçün uyğun zaman seçilməli, Rusiya ilə diplomatik dil tapılmalıdır. Artıq Ter-Petrosyan və digərləri anlayır ki, Ermənistan bu yolla heç nə qazanmayacaq. Bu baxımdan, onun kimilər vəziyyəti düzgün qiymətləndirməyə məcbur olublar. Amma Ter-Petrosyanın da səmimiyyətinə inanmaq mümkün deyil. Çünki onlar daim ikibaşlı siyasət oynayırlar. Petrosyan keçmişdə münaqişənin sülh yolu ilə həllinə çalışırdı. Əgər bu siyasət baş tutsaydı, bu gün tamam fərqli situasiya olardı. Amma təəssüf ki, ona imkan vermədilər. Güman edirəm ki, gec-tez Ermənistan yenə də həmin mövqeyə gələcək".

**VİP sədri Əli Əliyev düşmən ölkədə səsləndirilən təkliflərin xeyrimizə olmadığını düşünür:** “Dağlıq Qarabağ probleminin həllinə dair zaman-zaman müxtəlif təkliflər səsləndirmişik. Problemə münasibətimiz İrəvandan qaynaqlanmamalıdır. O tərəfdə səsləndirilən bütün təkliflər bizim xeyrimizə deyil. Mənə görə tərəflərin haqqında danışdığı ”Madrid prinsipləri" bizə münasib deyil. Həmin həll variantı Dağlıq Qarabağın itirilməsinə, Kəlbəcər və Laçının qeyri-müəyyən taleyinin təsbitinə, ərazimizə xarici ordunun gətirilməsinə və bir sıra digər itkilərə gətirəcəkdir. Bu baxımdan, Qarabağ ətrafında bir sıra makroməsələlər həllini tapmalıdır. Yəni Azərbaycan cəmiyyəti məsələ ətrafında səfərbər edilməli, ordunun gücü artırılmalı, cəmiyyətimiz sağlamlaşdırılmalıdır. Aprel döyüşləri göstərdi ki, millətin döyüş ruhu yerindədir. Beynəlxalq sahədə hadisələr xeyrimizə dəyişməkdədir. Türkiyə-Rusiya yaxınlaşmasından düzgün istifadə etməyi bacarmalıyıq. Zaman Ermənistanın ziyanına işləməyə başlayıb. Rusiya zəiflədikcə, problemin ətrafında status-kvonun xeyrimizə dəyişəcəyi şəksizdir. Yeri gəlmişkən, Ter-Petrosyanın narahatlığı da beynəlxalq trenddən qaynaqlanır. Hesab edirəm ki, hakimiyyət problemi monopoliyasından çıxarıb, ümummilli problem səviyyəsinə qaldırmağı bacarmalıdır".

❑ **Cavanşir ABBASLI**

# “Ermənistanda qazın və yanacağın qiymətləri bizdəkindən ikiqat bahadır”

## İlham Şaban: “Qafqazda Azərbaycandan ucuz yanacağı olan ölkə yoxdur”

**Təxminən eyni dövrdə Azərbaycanda qaz tariflərinin bahalaşması, Ermənistanda isə əksinə, ucuzlaşması insanlarda narahatlıq yaradıb. Bəzi mətbuat orqanlarında müvafiq müqayisələr aparılaraq, Ermənistanda qazın ucuzlaşması müsbət mənada vurğulanır. Həmçinin son günlər düşmən ölkədə benzin və dizel yanacağının da sürətlə ucuzlaşdığı bildirilir.**

Qeyd edilir ki, Ermənistanda ev təsərrüfatında işlənən təbii qazın bir kubmetrinin qiyməti 5 faiz endirilir - 147 dramdan 139 drama düşür (29 ABŞ senti və ya 51 qəpik). Azgəlirli ailələr isə təbii qazın hər kubmetrinə görə 100 dram (21 sent) ödəyə bilərlər.

Ötən ayın 28-də Azərbaycanın Tarif Şurası ölkədə təbii qazın qiymətində dəyişiklik etdi. Bu dəyişikliyə görə illik istehlak həcmi 1500 kubmetrdən çox olan hissə üçün qiymət artımı nəzərdə tutulub, bu cür istifadəçilər yanvarın 1-dən bir kubmetrə görə 20 qəpik, yəni 11.4 ABŞ senti ödəyəcəklər.

Bundan başqa, son günlər Ermənistanda benzin və dizel yanacağının qiymətləri düşüb. Dekabrın 15-də Premium markalı benzinin bir litri 350 dram (0, 70 dollar), Regular markalı benzinin 1 litri 330 dram (0, 68 dollar), dizelin 1 litri isə 320 dram (0, 66 dollar) idi. Hazırda isə bu yanacaqların hər biri 10 dram ucuzlaşıb. Yanacağın ucuzlaşmasını bazardakı rəqabətlə əlaqələndirirlər. Ermənistan İqtisadi Rəqabətin Müdafiəsi Dövlət Komitəsinin sözçüsü Qayane Saakyan deyib ki, bazarda yanacağı çox aşağı qiymətlərlə idxal edən firma peyda olub.

Qeyd edək ki, ölkəmizdə dizelin bir litri 60 qəpiyə, Aİ 92 markalı benzinin litri isə 70 qəpiyə satılır.

İki ölkədə qazın və yanacağın qiymətləri arasında aparılan bu müqayisəni dəyərləndirən **Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban** bildirdi ki, Ermənistanda qiymətlər nə qədər ucuzlaşsa da, Azərbaycanla müqayisədə yenə də ikiqat bahadır: “Ermənistanda qazın qiyməti Azərbaycanla müqayisədə daha bahadır. Onlarda son dövrlərdə qaz ona görə ucuzlaşıb ki, 2016-cı ildə Ermənistanla Rusiya arasında hökumətlərarası saziş imzalanıb və bunun nəticəsində Ermənistan qazı bir qədər ucuz almağa başlayıb. Bu sazişlə Ermənistanın qaz şirkəti ”Qazprom"dan qazı ucuz alır. Ermənistan hökuməti də daxildə satış qiymətlərinin qrafiklərini ucuzlaşdırıb. Ermənistandakı qiymətlə götürsək, 1000 kubmetr qaz 289 dollara gəlib çıxır. İndi bu qiymət müəyyən qədər endirilib. Lakin bu o demək deyil ki, Ermənistanda qaz ucuzdur. Ermənistanda, eləcə də Gürcüstanda qazın qiyməti Azərbaycandan bahadır. Çünki xarici qazpaylayıcı şirkətlər onlara qazı həddindən artıq baha satırlar".



İlham Şaban

**Ekspertin sözlərinə görə, Ermənistanda və Gürcüstanda bazar dövlət tərəfindən tənzimlənmədiyi üçün ildə bir neçə dəfə qiymət dəyişikliyi yaşanır:**

“İkinci bir məsələ isə odur ki, onlarda tənzimləyici mexanizm bazardır. Əgər bu sistemlə yanaşsaq, Gürcüstanda mütəmadi olaraq qazın, dizelin, yüksək oktanlı benzinin qiyməti aşağı düşür. Ancaq bu qiymətlər hələ Azərbaycandakından ucuz deyil. Digər bir fərq də odur ki, Azərbaycanda bazar dövlət tərəfindən tənzimlənir, bazar iqtisadiyyatının elementləri tətbiq edilmir. Əgər Azərbaycanda enerjidaşıyıcılarının satışı bazarında bazar elementləri mövcud olsaydı, bizdə də ildə 3-4 dəfə qiymətlər qalxa və enə bilərdi. Ona görə də bu müqayisə düzgün deyil”.

**Yanacağın qiymətinə gəlincə, İlham Şaban bildirdi ki, bunun səbəbi də qiymətlərin daxili bazar tərəfindən tənzimlənməsidir:** “Orada qiymətləri bazar müəyyənləşdirir. İdxal olunan yanacağın qiyməti ucuzlaşdıqda avtomatik qiymətlər enir, əksi baş verdikdə isə qalxır. Neftayırma zavodları qiyməti aşağı salan kimi Ermənistanda bu ucuzlaşma başladı. Azərbaycanda hazırda dövlət tənzimlənməsi olmasaydı, eyni proses baş verəcəkdi. Bu ölkədə dizel və benzinin qiyməti Azərbaycanla müqayisədə bahadır. Son ucuzlaşmanı nəzərə alsaq belə, yenə də bahadır. Qafqazda bizdən ucuz yanacağı olan ölkə yoxdur”.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 285 (6606) 22 dekabr 2016



# Kulturasız hökumət

Zamin HACI
zaminhaci@gmail.com

## “Bəlkə piyanar xanı qurbağaya döndərib?”

***(“Sehirli xalat” filmindən)***

**Dünən hardasa gözümə belə xəbər başlığı dəydi: “Ərdoğanın kortejində şübhəli motosikletçi görünüb”. Heç açıb oxumağa həvəs olmadı. Doğrusu, sevimli dövlətimiz Türkiyənin belə karikatür, tragikomik duruma gətirilməsi dilxorçuluqdur, şəxsən mənə çox pis təsir edir. Çünki biz 20-25 il qabaq Türkiyəyə Qərbə, sivilizasiyaya açılan qapımız kimi baxırdıq, indi belə çıxır bu qapı Ərəbistan səhrasına açılırmış.**

Moskvada Rusiya, Türkiyə, İran xarici işlər nazirlərinin görüşündən çəkilən fotonu da yəqin görmüsünüz. Orda iranlı cangüdən türk cangüdəndən gözünü çəkmir. Neyləmək olar, iki gün qabaq təxminən bənzər durumda türk “polisi” rus səfirini vurub öldürübdür. Türkiyənin xüsusi xidmətləri, kəşfiyyatı, polisi AKP dövründə çox acınacaqlı hala salınıbdır. Bunlar elə sahələrdir ki, gərək siyasətə alət etməyəsən, bu təbəqəni çirkin əməllərə, daxili siyasi oyunlara, müxalifətin məhvinə qoşdunsa, zibili mütləq çıxmalıdır. Kim bilməsə də, biz azərbaycanlılar - Hacı Məmmədovun, Eldar Mahmudovun bandalarını görmüş, yaşamış toplum bunu gözəl bilir.

Ümumiyyətlə, Türkiyə o qədər yalan-palanla idarə edilməyə başlayıb ki, bir gün kimsə çıxıb Ərdoğanın yerində neçə illərdir bənzərinin çalışdığını bəyan etsə, gərək təəccüblənməyək. Orda nə desən mümkündür, nağıllar diyarıdır.

Söz vaxtına çəkər, hazırda görkəmli maarifçi ziyalımız, “Molla Nəsrəddin” jurnalının qurucularından biri Ömər Faiq Nemanzadənin xatirələr kitabını oxuyuram, orda bir səhifədə Ömər bəy uşaqlığında, İstanbulda məktəb illərini belə xatırlayır: “Müəllimimiz Emil Lakovanın fransızca verdiyi elektrik bəhsi, Saleh Zəkinin riyaziyyat və fizikası, muzey müdiri Həmdi bəyin jetoloji və kimya dərsləri bizə təbii qüvvətlərin yaradılışda rollarını möhkəm bir surətdə öyrətdi və beynimizə düşən şübhələri getdikcə artırmağa başladı. Hələ tarix müəllimi Binbaşı Şövqibəyin ümumiyyətlə cahil, kulturasız hökumətlərin, xüsusilə Osmanlının zəifləyib parçalanacağına dair yürütdüyü tarixi-ictimai mühakimələr, gətirdiyi misallar, idarə və din xüsusunda beynimizə yerləşən əski fikirləri, əsilsiz təlimatı başımızdan çıxartmaqda böyük yardımı oldu. Yeddinci sinifdə daha ”Allah dünyanı altı gündə yoxdan xəlq etdi, gözə görünməyən, cin və mələyi xəlq etdi. Adəmi birdən-birə yaratdı, Quranı göydən göndərdi" kimi din əmrlərinə şübhəli baxırdıq".

Ömər Faiq burada 1887-ci ili təsvir edir. Ancaq indi - 2016-cı ildə, Osmanlının süqutundan 100 il sonra AKP camaatı Türkiyəni yenə də o bəsit, köhnəlmiş, çürük əfsanələrlə idarə edir, uçuruma aparır.

Bayaq məktəbdən sitat gətirdim, islam dünyasında elmə münasibəti son illərin bir araşdırması da çox açıq ortaya qoyur. İslam Əməkdaşlıq Təşkilatının üzvü olan 57 dövlət üzrə aparılan araşdırmanın nəticəsinə görə (Azərbaycan, Türkiyə, İran - demək olar planetdəki bütün müsəlman dövlətləri bu qurumun üzvüdür) bu ölkələrdə əhalinin hər 1000 nəfərinə 8,5 alim və texnik düşür. Bu rəqəmdə dünya üzrə orta göstərici 40,7-dir. İnkişaf etmiş dövlətlərdə isə hər 1000 nəfərə düşən alim və texnik sayı 139,3 nəfərdir. Bütün islam aləminin dünya elmi ədəbiyyatında iştirakı 1,17 faizdir. Təkcə İspaniyanın dünya elmi ədəbiyyatında illik payı isə 1,48 faizdir (müqayisə üçün). İƏT ölkələrinin elmi tədqiqat və araşdırmalara milli gəlirdən ayırdığı vəsait 0,3 faizdir. Dünya üzrə bu göstərici isə orta hesabla 2,4 faizdir.

Elmə, təhsilə, araşdırmaçılığa bu cür münasibət olan ərazilərdə gündə bir terror təşkilatının baş qaldırması, insan qanının sel kimi axması təsadüf deyil. Kimsə “alimin mürəkkəbi şəhidin qanından üstündür” deyib, bunlar isə səhv başa düşüblər, elə biliblər alimin qanını axıtmaq üstünlükdür.

Dünən bir dostumuz da təsadüfən AMEA-nın qabağından keçirmiş, deyir gördüm içəridə Təhsil Nazirliyi ilə birgə iclas var, ancaq nədənsə binanın qabağına təcili yardım maşınları düzülmüşdü. Görünür akademiklər və nazirliyin işçiləri elmi diskussiya zamanı çox gərgin olublar. Ən balaca üzvünün 55, ən qoca üzvünün 92 yaşı olan qurumda iclası reanimasiyada aparmaq daha səmərəli olardı.

# Terror coğrafiyasını böyüdür

**Rusiyanın Türkiyədəki səfiri Andrey Karlovun qətlə yetirilməsi bölgədə və onun ətrafında yeni situasiya yaradıb. Şəksiz ki, Azərbaycana da təsirsiz ötüşməyəcək bu situasiya böyük ehtimalla, dost-müttəfiqlərin yeni sırasını müəyyən edəcək, Yaxın Şərq (Suriya, İraq) böhranının həllinin hansı istiqamətdə gedəcəyinə əhəmiyyətli aydınlıq gətirəcək.**

Görünür, elə bundan çıxış edən regiondakı terror qruplaşmaları da öz yaxın taktikalarına düzəliş eləməyə qərar veriblər. Belə ki, qəddar terror qruplaşması İŞİD Rusiyanın Ankaradakı səfirinin güllələnməsindən sonra bu ölkənin başqa dövlətlərdəki səfirliklərinin də hədəfə alınacağını elan edib.

*****

“The Sun” nəşri xəbər verir ki, terror təşkilatı Rusiyanın hansı ölkələrdəki səfirliklərinin hücumlara məruz qalacağına dair PDF formatında siyahı və səfirliklərin yerləşdikləri ünvanları yayıb (virtualaz.org). Siyahıda Rusiyanın Bakıdakı səfirliyi də var. Bununla belə, İŞİD-in Rusiyanın Ankaradakı səfirinin güllələnməsinə görə məsuliyyəti üzərinə götürdüyü barədə məlumat yoxdur. Qeyd edək ki, Türkiyə hökumət dairələri səfiri güllələyən polis əməkdaşının FETÖ, yaxud “əl-Qaidə” bağlılığı haqda danışır.

İŞİD-in yaydığı siyahıya əsasən, bu terror qruplaşması Rusiyanın Kampala (Uqanda), Tehran (İran), Bakı (Azərbaycan), Tirana (Albaniya) və bəzi digər müsəlman ölkələrinin paytaxtlarında yerləşən səfirliklərinə terror hücumları həyata keçirəcəyini bildirir. Göründüyü kimi, söhbət əsasən Rusiyaya loyal və ya neytral ölkələrdən gedir.

Sözsüz ki, bu və digər təhlükələrin artacağından həm Rusiya, həm də bu ölkənin səfirliklərinin olduğu ölkələr, xüsusən də böhran bölgəsinə yaxın dövlətlər, o sırada Azərbaycan artıq xəbərdardır. Təsadüfi deyil ki, Andrey Karlovun öldürülməsindən sonra Rusiyanın Bakıdakı səfirliyinin təhlükəsizliyi gücləndirilib. Heç şübhəsiz, bu fonda təhlükəsizlik tədbirləri tərəfdaş ölkələrin xüsusi xidmət orqanları ilə əlaqəli şəkildə aparılacaq, eyni zamanda Azərbaycandakı İŞİD simpatizanlarının axtarışı birə-üç intensiv şəkil alacaq.

Rusiya prezidenti Vladimir Putin isə bildirib ki, xüsusi xidmət orqanlarının rəhbərlərinə xaricdəki səfirliklərin və diplomatların mühafizəsinin gücləndirilməsi üçün əlavə tədbirlər görülməsi üçün hər karları ilə əməkdaşlığı genişləndirmək barədə göstəriş verib. Ehtimal olunur ki, bu göstəriş riskli ölkələrdəki Rusiya səfirliklərinin və diplomatlarının mühafizəsini təmin etmək üçün xüsusi təyinatlıların göndərilməsini də nəzərdə tutur.



## Azərbaycan yenidən terror hədəfində - Qərb nəşrindən sensasion xəbərdarlıq

### İŞİD Rusiyanın Bakıdakı səfirliyini də hədəf götürdü; Bakı-Kreml münasibətləri növbəti sınaqla üz-üzə; Moskva isə Ankara ilə vizasız gediş-gəliş məsələsini dondurdu - səbəb; ekspert müdhiş plandan danışdı...

*****

Bu arada Moskvanın terror təhlükəsinə qarşı başqa bir qərarı məlum olub. Bəlli olub ki, səfirin qətlindən sonra Rusiya Türkiyə ilə vizasız rejimə dair aparılan danışıqları dondurub. Bu iddia ilə Rusiyanın “İzvestiya” nəşri çıxış edib. Qəzetin XİN-dəki mənbələrinə istinadən yaydığı məlumata görə, danışıqlar qeyri-müəyyən vaxtadək təxirə salınıb.

**Bildirilir ki, Rusiya hökuməti Türkiyədəki vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün lazımi tədbirlər görəcək.** “Türkiyə hökuməti ölkəyə gələn şəxslərin təhlükəsizliyinin təmin edilməsi istiqamətində ciddi işlər görməkdə davam etməlidir və Rusiyaya səfər etmək niyyətində olanların hamısının əsaslı yoxlanılmasına zəmanət verməlidir”, - deyə mənbə bildirib.

Qaynağın sözlərinə görə, son zamanlar baş vermiş faciəli hadisələr və cari ildə olmuş bir sıra insidentlərə görə Rusiya Türkiyə ilə viza rejimini ləğv etməyə hazır deyil. Maraqlıdır ki, bir neçə ay əvvəl səfir Andrey Karlov da Türkiyə vətəndaşları üçün viza rejiminin ləğvinə tələsməməyə çağırmışdı. Onun fikrincə, ölkədə təhlükəsizliyin təmin edilməsi üçün bütün tədbirlər görülməlidir.

*****

**Əslində baş verənlər məntiqli və anlaşılandır. Ancaq son terror aktından dolayı Rusiya və Türkiyə ilə bağlı daha uzağa gedən hədəflərin də olduğu iddia olunur. Məsələn, politoloq Qabil Hüseynliyə görə, açıq-aşkar Rusiya və Türkiyəni qarşı-qarşıya gətirmək məqsədi güdülür. Qətlin Rusiya-Türkiyə-İran xarici işlər nazirlərinin Moskva görüşü ərəfəsinə təsadüf etməsinə toxunan politoloq Karlovun ölümünü birbaşa Rusiya-Türkiyə münasibətlərinə qarşı sui-qəsd adlandırıb (axar.az).**

“Bu hadisənin Rusiya, Türkiyə və İran xarici işlər nazirlərinin üçtərəfli Moskva görüşü ərəfəsinə təsadüf etməsi bölgədə etimadsızlıq mühiti yaratmaq və daha çox Türkiyəyə zərər vurmaq məqsədi daşıyır. Eyni gündə Amerikanın Türkiyədəki səfirliyində sui-qəsd cəhdi isə bu işin arxasında böyük bir şəbəkənin durduğunu göstərir. Çünki yalnız Türkiyənin pisliyini istəyən qüvvələr belə xain hərəkətə yol verərdi. Açıq-aşkar Rusiya və Türkiyəni qarşı-qarşıya gətirmək istəyirlər”.

**Sabiq dövlət müşavirinə görə, eyni gündə baş verən üç hadisə - Karlovun ölümü, ABŞ-ın Türkiyə səfirliyinə hücum cəhdi və Rusiyada daha bir yüksək rütbəli məmurun qətlə yetirilməsi çox uzaqlara gedən nəticələr çıxarmağa əsas verir:** “Görünür, Rusiya və Türkiyə əleyhinə müəyyən qruplaşmalar hərəkətə keçib. Ən maraqlısı isə odur ki, hadisələr baş verən gün BMT-də Rusiyanın Krımdakı insan haqları ilə bağlı məsələ qaldırılıb və qəbul edilib. Bölgədə çox ciddi hadisələr cərəyan edir və bunun bir qismi Rusiyanın yeritdiyi siyasətlə bağlıdır. Rusiyanın Hələbdə qətliama yol verdiyinə dair müddəaları da buraya əlavə ediblər. Artıq bir sıra Qərb dövlətləri bu məsələnin BMT səviyyəsində müzakirəsini istəyir və Rusiyanın Suriyada irimiqyaslı əməliyyat siyasəti həyata keçirdiyini qeyd edirlər. İndi bu məsələnin məhz Ankarada düyünlənməsi və Türkiyəni prosesə cəlb etmək planının iflasa uğraması xəyal qırıqlığına səbəb olub. Bu aksiya bir tərəfdən Rusiya əleyhinə yönəlsə də, digər tərəfdən anti-Türkiyə xarakteri daşıyır”.

**Q.Hüseynli hazırda məlum hadisədən dolayı bir sıra ölkələrin Türkiyədəki səfirliklərini bağlamasına da münasibət bildirib:** “Bəziləri bunu təhlükəsizlik nöqteyi-nəzərindən etsə də, bəzilərinin müəyyən məsələlərdə iz qoymamaq üçün ümumi addımlara qoşulması istisna edilmir”.

*****

Bütün bunlar şübhə yox ki, dövlətlərarası münasibətlərin də yeni keyfiyyət mərhələsinə adladığını və ciddi sınaqla üzləşdiyini göstərir. Azərbaycan və onun digər ölkələrlə münasibətləri də istisna deyil.

❑ **Siyasət şöbəsi**



# "Rus səfirin qətlində ABŞ izi" iddialarına reaksiyalar

## Rəsmi Vaşinqton ağır ittihama operativ münasibət bildirdi; **politoloq:** "Vaşinqton Rusiya səfirinin qətlində niyə maraqlı olmalıydı ki?"

**Dekabrın 19-da Rusiyanın Türkiyədəki səfiri Andrey Karlovun silahlı şəxs tərəfindən güllələnməsi faktının arxasında hansı qüvvələrin dayanması gündəmin baş mövzularındandır.**

Qətlin Türkiyə-Rusiya münasibətlərinin pozulması üçün planlaşdırıldığı da səslənən iddialardandır və bu mənada səfirə qarşı terrorun arxasında ABŞ-ın dayandığı versiyaları da var.

Maraqlısı budur ki, hələ Rusiya və Türkiyənin yaratdığı birgə istintaq qrupunun gəldiyi nəticə, ortada konkret dəlil-sübut yoxdur, amma ABŞ-a yönəlik ittihamlar var. Artıq bu iddialara okeanın o tayından reaksiyalar verilib.

"Birləşmiş Ştatların Rusiyanın Türkiyədəki səfiri Andrey Karlovun qətli ilə heç bir əlaqəsi yoxdur". "Report" xəbər verir ki, bunu ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Con Kirbi deyib. Dövlət katibi Türkiyənin xarici işlər naziri ilə söhbət zamanı Gülənin ABŞ-da olması səbəbindən Amerikanın bu çirkin qətlə yardım etməsi və onda iştirakına dair Türkiyədə səsləndirilən bəyanatlardan narahatçılığını ifadə edib. "Bu ittihamlar tamamilə yalandır və həqiqətlə heç bir əlaqəsi yoxdur" deyə, Kirbi bildirib. Kirbi qeyd edib ki, Rusiya səfirinin qətlinin motivləri barədə rəsmi təhqiqat başa çatanadək möhtəkirlik etmək olmaz.

"Rəsmi Vaşinqton Ankarada səfir Andrey Karlovun qətlə yetirilməsi ilə bağlı cinayət işinin araşdırılmasında Rusiya və Türkiyəyə kömək etməyə hazırdır". Bunu isə ABŞ dövlət katibi Con Kerri bildirib. "ABŞ baş vermiş qətli qətiyyətlə pisləyir" C. Kerri əlavə edib.

Türkiyədə sui-qəsd nəticəsində öldürülən Rusiyanın bu ölkədəki səfiri Andrey Karlovu şəxsən tanıyan, onunla dostluq münasibətləri olan İldırım Beyazit Universitetinin professoru, doktor Saleh Yılmaz "bu hadisədə Amerikanın barmağı ola bilərmi" sualına "bu hadisədə bir ölkənin adını çəkmək doğru olmaz. Onsuz da bu hücumu təşkil edənlər elə planlamışlar ki, əsl günahkarı göstərəcək sübut qalmasın" deyə, cavab verib.

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında Rusiyanın Ankaradakı səfirinin öldürülməsi ilə bağlı müxtəlif versiyaların səsləndiyini vurğuladı. Onun sözlərinə görə, həm Rusiyanın, həm də Türkiyənin siyasi ekspertlərinin və siyasətçilərinin rəylərində üst-üstə düşən başlıca məqam ondan ibarətdir ki, terroru planlaşdıranların məqsədi Türkiyə-Rusiya münasibətlərini yenidən gərginləşdirmək olub:** "Türkiyə-Rusiya münasibətlərinin yenidən gərginləşməsində maraqlı olan dövlət və güclər bəllidir: ABŞ, Fətullah Gülən, PKK, YPG, PYD, DAİŞ. Ancaq bəlkə bunların heç birinin terrorçu ilə əlaqəsi olmayıb. İnsan amilini unutmaq lazım deyil. Məsələn, polisdə işləyən Mert Altıntaş hər gün ölkəsinin televiziya kanallarının xəbərlərində Hələbdəki dəhşəti, uşaqların qətlini, Rusiyanın bombardmanlarını və Ankarada Rusiya səfirliyi qarşısında etirazı izləyirdi. Beyin dözməyib, polisdə çalışsa da, Mert Altıntaşda psixoloji pozğunluq əmələ gəlib və o qərara gəlib ki, intiqam almaq lazımdır və onun üçün ən əlçatan iş Rusiya səfirini öldürməkdir. Əlbəttə, mən iddia etmirəm ki, Mert Altıntaş təkbaşına plan qurub və arxasında heç bir güc yoxdur. Ancaq bu versiya da istisna deyil. Buna baxmayaraq, "Rusiya səfirinin qətli kimlərin maraqlarına uyğun idi" sualı hələ uzun müddət səslənəcək. "Maraqlı tərəf" axtarışı davam edir. Diqqət yenə də Fətullah Gülənin üzərində cəmləşir. Səfiri qətlə yetirən polisin şəbəkəyə aid olduğuna dair şübhələr səsləndirilir".

**E.Şahinoğlu qeyd etdi ki, əgər Gülənin adı çəkilirsə, ağla istər-istəməz Mərkəzi Kəşfiyyat İdarəsi gəlir:** "Çünki Türkiyədə belə bir deyim var ki, Güləni "üst ağıl" idarə edir. "Üst ağıl" dedikdə isə Mərkəzi Kəşfiyyat İdarəsi və müxtəlif Amerika mərkəzləri nəzərdə tutulur. Ancaq Rusiya səfirinin öldürülməsində mən Amerikan izinin olduğuna şübhə edirəm. Elə Gülənin özü də qətldən dərhal sonra səfirin öldürülməsindən duyduğu narahatlığı bildirdi. Gülən bununla demək istədi ki, mənim bu işdə əlim yoxdur. Belə baxanda ABŞ-ın Rusiya səfirinin öldürülməsində niyə marağı olsun ki? Əlbəttə, Rusiya səfiri Andrey Karlovun Ankarada öldürülməsi Moskvanın Suriyada Bəşər Əsədə verdiyi dəstək və Hələb şəhərinin Əsəd ordusunun nəzarəti altına keçməsi ilə bağlıdır. O da var ki, Rusiya tərəfinin ilk reaksiyası bu olacaqdı ki, Türkiyə tərəfi sərgiyə qatılan səfirin təhlükəsizliyini təmin etməli idi. Buna baxmayaraq, hadisədən dərhal sonra proqnozum belə idi ki, bu olay təyyarə olayında olduğu kimi, Rusiya-Türkiyə münasibətlərinə mənfi təsir etməyəcək, tam əksinə, Ankara əlindən gələn hər şeyi edəcəkdi ki, Suriya məsələsində Moskva ilə ortaq məxrəcə gəlsin. Çünki Ankara səfirin vurulmasına görə üzərində mənəvi məsuliyyət hiss edəcək. Başqa sözlə, Rusiya səfirini itirsə də, olay sanki Kremlin işinə yarayacaq, Türkiyəni daha çox özünə tərəf çəkməyə müvəffəq olacaq. Proqnozum özünü doğrultdu. Rusiya özünü soyuqqanlı apardı və Moskvada Türkiyənin xarici işlər və müdafiə naziri ilə çox konstruktiv dialoq aparıldı. Əgər bunu biz proqnozlaşdıra bilmişdiksə, Mərkəzi Kəşfiyyat İdarəsi də əvvəlcədən proqnozlaşdıra bilərdi ki, səfirin ölümü Ankaranı Moskvaya daha yaxın edəcək. Bu isə Vaşinqtonun maraqlarına cavab vermir. Belədirsə, Vaşinqton Rusiya səfirinin qətlində niyə maraqlı olmalıdır ki?"

❑ **E.PAŞASOY**

# ""Ərəb baharı" Suriyadan Türkiyəyə, ordan da İrana keçməli idi" - ekspert




## "Ərəb baharı" ssenaristlərinin əsas hədəflərinin iflası barədə maraqlı açıqlamalar

**Ərəb ölkələrində gedən müharibələr, milyonlarla miqrant problemi və bu problemin Avropanın özünə də artıq ciddi problemlər yaratması Qərbin 6 il öncə başlatdığı "Ərəb baharı" proyektinin fəsadları sayılmalıdır. Artıq bu proyektin sərsəm, iflasa uğramış proyekt olduğunu söyləmək mümkündür.**

Məsələ haqda danışan **politoloq Elçin Mirzəbəyli** bildirdi ki, "Ərəb baharı" layihəsi əslində İraq müharibəsindən sonra Yaxın Şərqə, Fars körfəzi və Aralıq dənizi hövzəsinə müdaxilənin növbəti və müəyyən qədər modern mərhələsi hesab olunmalıdır: "İraq müharibəsinin başladılması üçün irəli sürülən iddialar öz təsdiqini tapmadığından bölgəyə fərqli formada müdaxilə üçün yeni bəhanələr lazım idi. 2008-ci ildə ABŞ-da keçirilən prezident seçkilərində demokratlar seçki təbliğatlarını məhz bu amil üzərində qurmuşdular. Seçki kampaniyasında Barak Obama qoşunların İraqdan çıxarılacağı vədini vermişdi. Lakin bu, ABŞ-ın bölgəni tərk etməsi anlamına gəlmirdi və belə bir məqsəd də yox idi. Çünki Birləşmiş Ştatların strateji maraqları bölgənin tam nəzarətə götürülməsini tələb edirdi. Demokratlar ABŞ-ın strateji maraqlarını təmin etmək üçün öz ənənəvi strategiyaları üzrə hərəkət etməyə başladılar. Əgər respublikaçılar dəstək verdikləri avtoritar hakimiyyətlərlə əməkdaşlığı qorumaqla bölgədə ABŞ-ın təsir imkanlarını qoruyub saxlamağa çalışırdılarsa, demokratlar bunun əksini düşünürdülər və hesab edirdilər ki, bölgədəki avtoritar rejimlər nəzarətdən çıxa, yaxud alternativ güc mərkəzləri ilə əməkdaşlığa üstünlük verə bilərlər. Obama hakimiyyətə gələndə Liviyada, Misirdə və digər bölgə dövlətlərində mərkəzdənqaçma meyllərinin təzahürləri hiss olunurdu.

Şübhəsiz ki, "Ərəb baharı"nın başladılmasını və iflasını bütövlükdə bu yanaşmaların üzərində qurmaq doğru olmazdı. Səbəblər çoxdur. Bu gün bir çox şərhçilər hesab edirlər ki, Birləşmiş Ştatların məqsədi dünya düzənini dəyişməkdən, ABŞ-ın vahid dünya gücü statusunu qorumaq və genişləndirmək üçün bu prosesə qarşı çıxa biləcək gücləri neytrallaşdırmaqdan ibarətdir. Bu baxımdan, uzunmüddətli münaqişələr, qarşıdurmalar üçün ən münbit bir bölgədən başlamaq lazım idi. "Ərəb baharı"nın ideoloqları başlatdıqları proseslərin zəncirvari reaksiya verəcəyini öncədən düşünmüşdülər".

**Ekspert qeyd etdi ki, prosesin başladılması üçün Tunisin seçilməsi təsadüfi deyildi:** "Bunun üçün baza hazırlanmışdı. ABŞ demokratları artıq uzun illər idi ki, Avropanın müvafiq institutları vasitəsilə Tunisdə öz nüfuz müvəkkillərinin sayını artırmağa nail olmuşdular. Proses domino effekti verməyə başladı, Tunisdə, Misirdə və Yəməndə dövlət çevrilişi baş verdi, Liviya və Suriyada vətəndaş müharibəsi vüsət aldı, Bəhreyn, Əlcəzair, İordaniya və Mərakeşdə kütləvi iğtişaşlar bu ölkələrin siyasi hakimiyyətlərini silkələdi. Proses çox güman ki, Suriyadan, Türkiyəyə, oradan da İrana doğru hərəkət etməliydi. Lakin Suriyada xüsusilə də Rusiyanın müdaxiləsindən sonra vəziyyət dəyişdi. Bölgənin aparıcı dövlətləri prosesə daha ciddi müqavimət göstərməyə başladılar. Hətta Türkiyənin də mövqelərində də dəyişiklik baş verdi və ssenari müəllifləri bu il 15 iyulda Ərdoğan hakimiyyətini devirməyə, yaxud bu ölkəni xaosa sürükləməklə zəncirvari reaksiyanı davam etdirməyə cəhd göstərdilər. Türk xalqının direnişi və Rusiyanın nümayiş etdirdiyi, bəlkə "Ərəb baharı" layihəsinin müəllifləri üçün gözlənilməz olan mövqe proseslərin gedişatına öz həlledici təsirini göstərdi. Lakin bu, hələ layihəyə müqavimət göstərən ölkələrin prosesi tamamilə dayandırdıqları anlamına gəlmir. Olduqca mürəkkəb bir vəziyyət yaranıb və hadisələrin hansı xətt üzrə inkişaf edəcəyini proqnozlaşdırmaq mümkün deyil".

**E.Mirzəbəylinin sözlərinə görə, əgər biz düşünsək ki, ABŞ-ın və müttəfiqlərinin məqsədi bölgəyə demokratiya gətirməkdən ibarət idi, o zaman əlbəttə, birmənalı şəkildə "Ərəb baharı"nın iflasa uğradığını deyə bilərik:** "Ona qalardısa, proses ABŞ-ın yaxından əməkdaşlıq və himayə etdiyi monarxiya rejimlərindən başlamalıydı. Tunus də, Misir də, Suriya da, Yəmən də respublika modelli ölkələr idi. Yəni bu ölkələr şəriət qaydaları ilə deyil, dünyəvi qanunlarla idarə olunurdu. Məqsəd bölgəni xaosa sürükləmək idi və bu proses təəssüf ki, yekunlaşmayıb".

**O ki qaldı miqrant axınına, ekspert Avropa ölkələrinin bunu hesablayıb-hesablamadıqlarını deyə bilmədiyini söylədi: "Ama ABŞ 100 faiz hesablamışdı. Birləşmiş Ştatlar artıq uzun illərdir ki, Avropa ölkələrini, xüsusilə də NATO üzrə müttəfiqlərini hərbi büdcələrini, Avratlantik Alyansa olan ödənişlərini artırmağa və ən azından ödəməyə çağırırdı. Yəni Vaşinqton daha öz pulu ilə avropalıları qorumaq istəmirdi. Avropalılar isə nə onları qoruyana pul ödəmək istəyirdilər, nə də özlərini qorumaq. Çünki real təhlükə hiss etmirdilər. Avropa İttifaqı ölkələrinin əsasən solçulardan ibarət hakimiyyətləri seçki kampaniyalarında daha çox sosial vədlər verir və bu vədləri yerinə yetirməyə çalışırdılar. Miqrant axını, terror, Rusiyanın timsalında təqdim olunan təhdid obyekti və s. isə Avropadakı əhval-ruhiyyəyə ciddi təsir göstərdi və təhlükəsizlik amili sosial problemlərin həllindən önə çıxdı. İndi bir sıra Avropa ölkələrində millətçi siyasi qrupların mövqeləri möhkəmlənir və təhlükəsizlik məsələləri ön planda dayanır".**

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 285 (6606) 22 dekabr 2016




# Qətlə yetirilən səfirin cənazəsini aparan "TU-154"lərin törətdiyi qəzalar...

## Bu növ uçaqlara Avropa yasaq qoyub; **ekspert:** "Əgər istismar müddəti başa çatıbsa, onlar xəttə buraxılmamalıdır"

**Dekabrın 19-da Ankarada qətlə yetirilən Rusiyanın Türkiyədəki səfiri Andrey Karlovun cənazəsi bir gün sonra Moskvaya göndərildi. Səfirin cənazəsi Rusiyadan göndərilən təyyarə vasitəsilə aparıldı. Burada maraqlı məqam ondan ibarətdir ki, səfirin cənazəsini aparmağa gələn "TU-154" tipli təyyarə olub.**

"TU-134" və "TU-154" təyyarələrinin istehsalına 1960-cı illərdə başlanılıb. Bu tipli təyyarələr yaddaşlarda xeyli insan tələfatı ilə nəticələnən qəzalar törətməsi ilə qalıb.

"TU-154" tipli təyyarənin ilk qəzası 19 fevral 1973-cü ildə olub. Moskvadan qalxan təyyarə Praqa aeroportuna enərkən uçuş zolağına 470 metr qalmış qəzaya uğrayıb. Göyərtədəki 100 nəfərdən 66-sı həlak olub. Həmin il eyni tipli təyyarə ikinci dəfə də qəzaya düşüb.

1975-ci ildə isə Budapeştdən qalxan "TU-154" Beyruta enərkən dənizə düşüb, göyərtədəki 66 nəfərin hamısı həlak olub.

24 fevral 1999-cu ildə "TU-154" Çinin Juan əyalətinə enərkən təyyarə sıradan çıxıb, 61 nəfər həlak olub. 2006-cı ildə eyni tipli təyyarə Peterburq-Anapa reysi ilə uçarkən Donetskdə qəzaya uğrayıb və 170 nəfər ölüb...

2011-ci ildə "TU-134" təyyarəsi Petrozavodski hava limanında enmədən bir an əvvəl sıx dumanda yola çırpılaraq 44 nəfərin həlak olmasına səbəb olub. Təyyarədən çıxarılandan sonra həlak olan gənc oğlan qəzanın xilas edilmiş qurbanlarının sayını 45-ə çatdırıb. Həmin vaxt Rusiya prezidenti olan Dmitri Medvedyev deyib ki, "TU-134" təyyarələrinin istifadəsi gələn ildən dayandırılmağa başlamalıdır. Oxşar hadisə 2010-cu ildə İranda da baş verib. Belə ki, İranın Məşhəd şəhərində "TU-154" təyyarəsi yerə enərkən qəzaya uğrayıb. Qəza nəticəsində 46 nəfər xəsarət alıb. Bu hadisədən sonra İran Aviasiya Təşkilatı qəti qərara gəlib ki, "TU-154" tipli sərnişin təyyarələrinin İrana idxalını dayandırsın.

2010-cu ilin aprel ayında Polşanın prezidenti Lex Kaçinski və xanımı Mariya Kaçinski də məhz "TU-154" tipli təyyarənin qurbanı olublar. Həmin qəza zamanı ümumilikdə 132 nəfər həlak olub. Polşa da bu təyyarələrdən imtina edib.

Bütün bu hadisələrdən sonra "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti də 2010-cu il dekabrın 24-dən Rusiyanın istehsalı olan təyyarələrin istismarından imtina edib. Həmin zamana qədər Azərbaycanda Rusiyanın istehsalı olan "TU-134" və "TU-154" tipli təyyarələrdən istifadə olunurdu.

**Hərbi aviasiya eksperti Ədalət Əliyev "Yeni Müsavat"a bildirib ki, Rusiyada bu təyyarələr hələ də istifadə olunursa, demək ki, onların istismar müddəti başa çatmayıb:** "Ümumiyyətlə, təyyarələr köhnəlir deyə bir anlayış yoxdur. Təyyarənin ya istismar müddəti başa çatır, yaxud da o, hələ uçuşa yararlı vəziyyətdə olur. Əgər istismar vəziyyəti başa çatıbsa, demək ki, onlar xəttə buraxılmamalıdır və buraxılmır. İli köhnə olsa da istismara yararlı olan təyyarələr xəttə buraxılır. İstismara yararsızı isə 1 saat da olsun uçuşa qoymazlar. "TU" tipli təyyarələr təkcə 1960-cı ildə istehsal olunmayıb. 1980-ci, 1990, 1992-ci ildə də həmin tipli təyyarələr istehsal olunub. Rusiyada da istifadə olunursa, demək ki, onların istismar müddəti başa çatmayıb. Azərbaycanın bu təyyarələrdən imtinasına gəlincə isə bu, bir neçə səbəblə bağlıdır. Belə ki, Azərbaycan müqavilə bağlayaraq "Boing" təyyarələri almağa başladı. Çünki Rusiya artıq həmin təyyarələrin bir çox istismar olunan avadanlıqlarının istehsalını dayandırmışdı. Ona görə də problem yaranmasın deyə, həmin təyyarələrdən imtina etdik. Bundan əlavə, səs məsələsi də var idi. Belə ki, səsə görə Avropa ölkələrinin bir çoxuna həmin təyyarələr buraxılmırdı. Azərbaycan da gələcəyi nəzərə alaraq, həmin təyyarələrdən imtina edib, "Boing" tipli təyyarələrə keçdi".

**Əli RAİS**

**Donald Trampın prezident seçilməsi ilə ABŞ-da hakimiyyətə gələn Respublikaçılar Partiyası ilə eyni ittifaqda müttəfiq edən yeganə Azərbaycan partiyası AMİP-dir. Bu barədə "Yeni Müsavat"a açıqlamasında AMİP-in beynəlxalq əlaqələr üzrə katibi, beynəlxalq məsələlər üzrə ekspert Elşən Mustafayev bildirib. O qeyd edib ki, AMİP sağ mərkəz yönlü partiyaları özündə birləşdirən Beynəlxalq Demokrat İttifaqı (BDİ) çərçivəsində ABŞ-ın Respublikaçılar Partiyası ilə müttəfiqdir.**



# Azərbaycanda Trampın partiyası ilə eyni ittifaqda olan partiya

## **Elşən Mustafayev:** "ABŞ-dan bizim ölkənin daxili problemlərini həll etməyi gözləməməliyik"

Bu ilin iyul ayında AMİP rəhbərliyi Donald Trampın namizədliyinin təsdiqləndiyi Respublikaçılar Partiyasının qurultayına dəvət alıb. Lakin müəyyən səbəblərdən qurultayın işində iştirak edə bilməyiblər. Bununla belə, qurultaya təbrik məktubu göndərilib. Seçkilərdən sonra da ABŞ Respublikaçılar Partiyasına və Donald Trampa AMİP rəhbərliyi rəsmi təbrik məktubu göndərib.

**Bununla belə, ekspert bildirdi ki, nə AMİP, nə digər partiyalar bundan sonra da ABŞ-dan bizim ölkənin daxili problemlərini həll etməyi gözləməməlidirlər:** "ABŞ kimi super dövlət də daxil olmaqla, istənilən dövlətin başçısının bizim ölkənin daxili siyasi problemlərinin həllində yardımçı olacağına ümid bəsləmək yanlış mövqedir. Həqiqətən də ABŞ-dakı seçkilərdən öncə Azərbaycan ictimai-siyasi fəallarının mütləq əksəriyyəti Demokratlar Partiyasının namizədi Hillari Klintonu prezident kimi görmək istəyirdilər. Elə düşünürdülər ki, Klinton prezident seçilsə, bu, Azərbaycanda demokratik proseslərə avtomatik təsir göstərəcək və sair. Sanki Tramp və Klinton arasında hər hansı ciddi fərq mövcuddur. Əslində ABŞ-ın xarici siyasəti üçün heç nə dəyişməyib və dəyişməyəcək də. Klintondan nələrisə gözləyənlər Barak Obamanın 8 illik prezidentlik dövrünü xatırlamırdılar sanki. Hansı ki, Obamanın birinci prezidentlik dönəminin dövlət katibi Hillari Klinton idi. Məgər həmin dövrdə ABŞ Azərbaycanda demokratiyaya real dəstək vermişdi? Xeyr. Azərbaycan siyasətçilərinin Trampa olan münasibətlərinin dəyişib dəyişməyəcəyini deyə bilmərəm Amma Tramp dönəmində yeni komandanın Azərbaycana, onun hakimiyyətinə və müxalifətinə münasibəti hər zaman olduğu kimi ABŞ-ın milli maraqlarına uyğun həyata keçiriləcək. Bunu da normal qəbul eləmək lazımdır. Ona görə də hesab edirəm ki, Azərbaycan müxalifəti kənardan dəstəyə yox, öz gücünə, xalqın dəstəyinə ümid eləməlidir. Bu, daha real nəticələrə gətirib çıxarar".

E.Mustafayev dedi ki, Trampın demokratiya ilə bağlı necə davranacağından asılı olmayaraq AMİP-lə Respublikaçılar Partiyasının Beynəlxalq Demokrat İttifaqında müttəfiqliyi davam edəcək.

**E.SEYİDAĞA**

# Savadlı ekspertlərin yetişməsi üçün nə etməli...

## **Mübariz Əhmədoğlu:** "Müxtəlif sahələr üzrə, xüsusən də politoloji sahə üzrə yüksək bilikləri mənimsəmiş gənclərə efirə çıxmaq imkanı yaradılmalıdır"

**Azərbaycan telekanallarında müxtəlif mövzularda müzakirələrə dəvət edilən bir sıra ekspertlərin şərhləri, ümumiyyətlə, TV-lərin ekspert siyasəti bir neçə gün öncə deputatlar Fazil Mustafa və Qənirə Paşayeva tərəfindən tənqid olundu. Deputatlar efirə çıxarılan bir çox ekspertlərin məlumatsızlığından, qeyri-peşəkarlığından şikayətləndilər.**



**Politoloq Elçin Mirzəbəyli** ölkədə ekspertlərlə bağlı ciddi problemlərin olduğunu, ekspert azlığını, bu sahədə ciddi ixtisaslaşma baş vermədiyinin problemin səbəblərindən biri olduğunu qeyd edərək "Yeni Müsavat" vasitəsilə öz təkliflərini də irəli sürüb. Politoloq təklif edib ki, real fəaliyyət göstərən ekspert klubu yaratmaqla, yeni nəsil ekspertlərin formalaşmasına dəstək verilməlidir. Əgər bu yolla yeni ixtisaslaşmış ekspertlər hazırlansa, təkcə televiziyalar yox, dəstəyə ehtiyacı olan çap mediası da bundan bəhrələnə biləcək.

**Digər üzdə olan politoloqlardan da bu təklifə dəstək gəlməkdədir. Siyasi İnnovasiya və Texnologiya Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu bu barədə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, telekanallardakı mövcud ekspert probleminin obyektiv və subyektiv səbəbləri var:** "Deputatlar subyektiv maraqların daşıyıcılarıdır. Maraqlarını telekanallarda görməyəndə bəzən narazılıq eləməyə başlayırlar. Yaxın vaxtlara qədər televiziyaların da deputatlara müraciət edib onları ictimai-siyasi verilişlərə dəvət eləməsi müşkül məsələyə çevrilmişdi. Mən o fikirlə razıyam ki, bəzən hazırlığı, məlumatı kifayət qədər olmayan ekspertlər telekanallarda çıxışlar edirlər. Nəticədə də bəzən yanlış şərhlər, yanlış informasiyalar cəmiyyətə ötürülür".

**M.Əhmədoğlu da hesab edir ki, ixtisaslaşmış ekspertlər hazırlamaq və bunun üçün hansısa bir mərkəz yaradılması problemin həlli yollarından biridir:** "Mən hesab edirəm ki, problemin həlli yollarından biri xaricdə yüksək təhsil alan gənclərə meydan verilməsi, şərait yaradılmasıdır. Müxtəlif sahələr üzrə, xüsusən də politoloji sahə üzrə yüksək bilikləri mənimsəmiş, Avropanı yaxından tanıyan, məsələn, Parisi Bakı qədər tanıyan gənc ekspertlərə efirə çıxmaq imkanı yaradılmalıdır. İnanın ki, onların verdikləri şərhlər daha əhatəli, daha dəqiq və daha savadlı olacaq. Dövlət məmurları var ki, onların da övladları xaricdə təhsil alıblar, kifayət qədər məlumatlı, savadlıdırlar. Onların imkanlarından istifadə edilsə, işin xeyrinə olar. Ekspert azlığı və ya zəifliyi problemi həll etmək əslində elə də çətin deyil".

**E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 285 (6606) 22 dekabr 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Azərbaycanın 2016-da akkord hərbi təlimi - döyüş hazırlığı təkmilləşdirilir

## Ölkənin hərbi qüdrətinə diqqəti artırması təkcə işğalçı Ermənistanda deyil, başqa ünvanlarda da həssaslıqla izlənməkdədir; **rusiyalı politoloq:** "Ermənistan Moskvanın icazəsi olmadan "İsgəndər" düyməsinə basa bilməz..."

**Sülh danışıqlarının dalana girməsi Azərbaycanı öz hərbi qüdrətini, Silahlı Qüvvələrinin döyüş hazırlığını daha da artırmaq zorunda qoyur. Dövlət büdcəsinin mühüm bir hissəsi bu istiqamətlərə yönəlsə də, ayrı yolumuz yoxdur. Çünki işğalçı Ermənistanı, belə görünür, konstruktiv mövqeyə yalnız güc amili hesabına gətirmək mümkün olacaq. Yəni ya böyük müharibə qaçılmaz olacaq, ya da düşmən Azərbaycanın əzici hərbi üstünlüyü qarşısında sülhə vadar olacaq.**





Ərazisinin 20%-i işğal altında olan ölkəmiz, onun ordusu əlbəttə ki, hər iki variantı ciddiyə alıb da hərbi məsələlərə mühüm diqqət ayırır. Bu yöndə təbii ki, o, ilk növbədə dost-müttəfiq və strateji tərəfdaş ölkələr - qardaş Türkiyə, Pakistan, İsraillə sıx əlaqələrdən istifadə eləməyə çalışır.

Sözsüz ki, Rusiyadan da silahlar alırıq. Ancaq son illər Azərbaycanın hərbi parkında rus silah-sursatının azalması, başqa ölkələrin payının isə artması müşahidə edilir ki, bu da hərbi analitiklərin fikrincə, Moskvadan asılılığın azalması baxımından yaxşı tendensiya sayılır. Hər necə olmasa, Rusiya Ermənistanın 1 nömrəli müttəfiqidir və əslində Azərbaycana bir yandan silah satıb pul qazanırsa, o biri yandan da işğalçını silahlandırır ki, hərbi balans pozulmasın və işğalçı tərəf Qarabağ məsələsində öz radikallığını saxlasın.

O üzdən Azərbaycan öz ordusunun ən müasir silahlarla təchiz olunması, düşmənin hərbi balans yaratmasına imkan verilməməsi üçün mümkün hər şeyi edir və bunda sonra da edəcək. Şübhə yox ki, əsas diqqət həm də Silahlı Qüvvələrimizin döyüş hazırlığını gücləndirməyə yönəlib.

*****

Bu arada Azərbaycan Silahlı Qüvvələrinin bütün rəhbər heyətinin iştirakı ilə üçgünlük toplantı başlayıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumatına görə, müdafiə nazirinin müavinləri-nin, Silahlı Qüvvələrin növləri və qoşun qisimləri komandanlarının, nazirliyin baş idarə, idarə və xidmət rəislərinin, birlik və birləşmə komandirlərinin, qərargah rəislərinin və digər məsul zabitlərin iştirakı ilə keçirilən toplantıda müdafiə naziri, general-polkovnik Zakir Həsənov çıxış edib.

Nazir Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrin fəaliyyətinə verdiyi yüksək qiyməti və ordu qarşısında qoyduğu tapşırıqları diqqətə çatdırıb, aparılan fəaliyyətlər və əsas istiqamətlər üzrə yerinə yetirilən vəzifələri bir daha xüsusi vurğulayıb.

Toplantıya qatılan heyət təlim mərkəzində və çöl-səhra şəraitində təşkil olunan hazırlıq məntəqələri və nöqtələrində nəzəri və praktiki məşqlərdə iştirak edir. İştirakçılardan ümumqoşun nizamnamələri, rəhbəredici və digər normativ sənədlərlə bağlı biliklər üzrə məqbullar qəbul edilib, şəxsi heyətin fiziki hazırlığının səviyyəsi yoxlanılıb.

Silahlı Qüvvələrin rəhbər heyətinin döyüş hazırlığının, bacarıq və qabiliyyətlərinin yoxlanılması məqsədilə silahlanmada olan zirehli texnikanın ştat silahından və atıcı silahlardan atışlar icra olunur, generallar və zabitlər müxtəlif növ tırtıllı və təkərli döyüş maşınlarının, avtomobil texnikasının idarə edilməsi üzrə yoxlama tapşırıqları yerinə yetirirlər.

*****

Azərbaycan ordusunun həm döyüş qabiliyyətini, həm də hərbi potensialının artması əlbəttə ki, Ermənistanla yanaşı, Rusiyada da diqqətlə izlənilir. Eyni zamanda Moskva Azərbaycanı imkanlı bir silah alıcısı kimi itirmək də istəmir. Ötən həftə İsrailin baş naziri Benyamin Netanyahunun Bakı səfərinin ardınca Rusiya baş nazirinin müavini, ölkənin hərbi-sənaye kompleksinə əsas cavabdeh şəxs Dmitri Roqozinin Bakıya gəlişi müstəsna olaraq, bu imperativlə bağlı idi.

**Bu iki səfər və onun mümkün nəticələri hələ də siyasi və hərbi analitiklərin müzakirə mövzusudur. O sırada rusiyalı politoloq Vadim Dubnov həmin səfərlərdə təəssüblü bir şey görmür.** "Dmitri Roqozinin Azərbaycan paytaxtına bu yaxınlardakı səfəri hay-küylü, intriqalı oldu, ancaq gerçəkdə burada qeyri-adi heç nə yox idi. Çünki aydın idi ki, Rusiya Azərbaycana ciddi silah növlərini verməsini Azərbaycanla razılaşdırır", - deyə o, 1 in.am erməni nəşrinə müsahibəsində bildirib.

Yada salaq ki, Azərbaycan rəhbərliyi ilə görüşdən sonra Roqozin bəyan edib ki, "Moskva və Bakı diskussiya mövzusu olan bir sıra məsələləri yoluna qoyublar". Söhbət əlbəttə ki, öncəliklə işğalçı Ermənistanda peyda olan və hətta nüvə başlıqları daşıya biləcək "İsgəndər" operativ-taktiki raket komplekslərindən gedir.

**Bu mövzuda danışan rusiyalı siyasi şərhçi daha sonra deyib:** "Şübhəsiz ki, Moskva Bakıdakı tərəfdaşlarına bu və ya başqa anlaşmanın mahiyyətini izah edir. Odur ki, belə bir koordinasiya silah bazarı üçün, belə incə situasiya üçün tamamilə normal haldır. Əgər Rusiya qərara alıbsa ki, bir-biri ilə vuruşan iki ölkəyə silah satsın, o zaman Moskvanın məntiqi tamamən aydın və şəffafdır. Bu mənada Roqozinin Bakı səfəri qanunauyğundur".

**Dubnov hesab edir ki, eyni sözləri Netanyahunun Azərbaycana səfəri haqda demək olar:** "Səfər zamanı ənənəvi İsrail-Azərbaycan dostluğu haqda çoxlu bəyanatlar verildi. Bəzi konspiroloqlar bu münasibətlərdə yeni Təl Əviv-Bakı geosiyasi oxunu görürlər. Ancaq mən düşünürəm ki, bu, adi tərəfdaşlıq, silah bazarının işində növbəti epizoddur".

**Politoloqun sözlərinə görə, bütövlükdə bu kontekstdə çoxlu ehtimallar, virtual təsəvvürlər var:** "O cümlədən söhbət "İsgəndər" komplekslərinin tətbiqindən və Azərbaycanın İsraildən aldığı "Dəmir günbəz" sistemlərindən gedir. Bir tərəfdən bizdə "İsgəndər"lər var - hansı ki, guya Bakıya belə zərbə endirə bilər, hərçənd buna mən o qədər də əmin deyiləm - başqa tərəfdən isə guya "İsgəndər" raketlərindən qoruyacaq "Dəmir günbəz" var. Yəni burada çoxlu "guya"lar və ehtimallar mövcuddur. "İsgəndər"lərə qarşı "Dəmir günbəz" - bu, virtual bir sxemdir. Çünki biz hamımız başa düşürük ki, Moskvanın icazəsi olmadan heç kəs "İsgəndər"lərin düyməsinə basa bilməz".



# Petrosyan məşhur çıxışını Serjlə razılaşdırıb - iddia

**Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyanın bir müddət öncəki qalmaqallı çıxışı Ermənistan Prezident Administrasiyası ilə razılaşdırılıb. Bu barədə informasiyanı "Jamanak" qəzeti özünün etibarlı mənbələrinə istinadən yayıb (axar.az). Qəzet Petrosyanın çıxışının hökuməti tənqid baxımından çox yumşaq olduğunu bildirib.**

"Hakimiyyət Respublika Partiyasının nümayəndələrinə Petrosyan əleyhinə aqressiv və təhqiramiz bəyanatlar səsləndirməmək tapşırığı verib. Üstəlik, hakimiyyətlə Petrosyanın Erməni Milli Konqresi Partiyası arasında parlamentdəki yer sayı ilə bağlı sövdələşmə davam edir", - deyə nəşr iddia edib.

Qeyd edək ki, bundan öncəki çıxışında Ter-Petrosyan Ermənistan hakimiyyətini 90-cı illərdə Bakı ilə İrəvan arasında əldə oluna biləcək sülhə manea yaratmaqda günahlandırıb. O, həmçinin ölkənin inkişafı üçün Qarabağ konfliktinin dərhal sülh yolu ilə həll edilməsi gərəkdiyini bildirib, Türkiyə ilə sərhədlərin açılmasının vacibliyini qeyd edib.

YENİ MÜSAVAT
N 285 (6606) 22 dekabr 2016

# "Moskva üçlüyü"nün Suriya qərarı

## Rusiya, Türkiyə və İranın anlaşması münaqişənin həlli yönündə mühüm addım sayıla bilər



**Dekabrın 20-də Moskvada Rusiya, Türkiyə və İran XİN rəhbərləri arasında Suriya münaqişəsi ilə bağlı görüş olub. İlk dəfə olaraq məhz bu üç ölkə Suriya böhranına dair ortaq təşəbbüslə bir araya gələrək müəyyən məsələlərlə bağlı anlaşma əldə ediblər.**

Məlum olub ki, XİN rəhbərləri Suriyada siyasi həll prosesinin yenidən canlandırılması ilə bağlı razılıq əldə ediblər. Nazirlərin mətbuat konfransında Rusiya XİN rəhbəri Sergey Lavrov deyib ki, hər 3 ölkənin hökumətləri "Suriyada əsas məqsədin rejim dəyişikliyi olmadığı" ilə bağlı razılığa gəlib. Onun sözlərinə görə, razılaşma Suriyanın ərazi bütövlüyü, müstəqilliyinin qorunması və "terrora qarşı mübarizə"ni nəzərdə tutur.

Nazirlərin qəbul etdiyi bəyannamədə göstərilir ki, 3 ölkə Suriyada hakimiyyət və müxalif qüvvələr arasında əldə olunacaq razılaşmanın təminatçısı olmağa hazırdır. Eyni zamanda tərəflər etnik, din və məzhəb fərqi qoymadan Suriyanın müstəqilliyi, ərazi bütövlüyünə hörmət edir və münaqişənin hərbi həll yolunun olmadığını bəyan edir.

Tərəflər Suriya münaqişəsinin BMT TŞ-nin 2254 saylı qərarı əsasında aparılan danışıqlar prosesinə sadiq qaldıqlarını bildirib, eyni zamanda beynəlxalq ictimaiyyətə bu anlaşmanın icrası qarşısında maneələrin ortadan qaldırılmasına dəstək çağırışı edilib.

Bundan başqa, mətndə Hələbdə mülki əhalinin təxliyəsinin davam etdirilməsi, habelə Fua, Kefreya, Zabadani və Madaya məntəqələrində davam edən təxliyə fəaliyyətləri təqdir olunub. Nazirlər həmçinin İŞİD və "Cəbhə ən-Nusra" (indiki adı "Şamın Fəth Cəbhəsi") terror təşkilatlarına qarşı mübarizə və digər silahlı müxalif qrupların bunlardan ayrılması ilə bağlı razılığa gəliblər.

Ortaq bəyanat 8 maddədən ibarətdir. Maddələrdə Suriyada BMT TŞ qətnaməsinə uyğun danışıqların davam etdirilməsi, mülki əhalinin təhlükəsiz ərazilərə köçürülməsinin təmin olunması, savaş bölgəsinə yardımların çatdırılmasının təmin edilməsi, bütün ölkə ərazisində atəşkəsə nail olunması, prezidentlərin Qazaxıstan (Astana) görüşünün dəstəklənməsi və nəhayət, "Cəbhət ən-Nusra" və İŞİD-ə qarşı birgə mübarizənin dəstəklənməsi yer alır.

Qeyd edək ki, Moskva toplantısı konkret qərar mexanizmi ortaya qoymasa da, bir sıra səbəblərdən çox mühüm əhəmiyyət daşıyır. Birincisi, ilk dəfə olaraq beynəlxalq təşəbbüs və BMT mandatı ilə deyil, ölkələrin öz təşəbbüsü ilə, Qərb ölkələrinin iştirakı olmadan Suriya danışıqları keçirilib. İkinci mühüm amil hər 3 ölkənin Suriyada "açar güc" olması ilə bağlıdır. Onların 3-ünün hazırda Suriya ərazisində silahlı qüvvələri var, münaqişə aparan tərəfləri dəstəkləyir, yəni dolayısı ilə birbaşa münaqişənin içərisində olan, proseslərə təsir imkanına sahib dövlətlərdir. Üçüncü mühüm amil isə hər üç dövlətin hazırda maraqları onları Suriyada anlaşmağa sövq edir. Rusiya və İran müttəfiq münasibətlərinə malikdir, Türkiyə isə müxalif qrupları dəstəkləsə də, Suriyanın ərazi bütövlüyünün qorunması, kürd məsələsində Rusiya və İranla həmfikirdir, digər tərəfdən, Qərblə kürd məsələsində fikri ayrılığında olduğu üçün indi Ankara üçün Suriyada Moskva ilə anlaşmaq daha rahat və əlverişlidir.

Moskva toplantısından çıxan ən mühüm qərarlardan biri də Bəşər Əsədin iştirak etdiyi keçid prosesi ilə bağlı ortaq mövqedir. Daha əvvəl Ankara bu məsələdə tərəddüdlü olsa da, son hadisələrdən sonra bütün tərəflərin, o cümlədən mövcud hakimiyyətin də iştirak edəcəyi yeni hökuməti tanımağa razılaşıb. Hər halda, bu görüş Türkiyənin İran və Rusiya tandeminə qatılması və ya ən azı onlarla uzlaşmağa çalışması yönündə ən mühüm addım hesab oluna bilər.

Təbii ki, əsas qərarlar Rusiya və Türkiyə prezidentlərinin yaxınlarda Astanada (Qazaxıstan) baş tutacaq görüşündə qəbul oluna bilər - əgər iki dövlət anlaşa bilsə. O zaman bu, Suriya münaqişəsinin həllində mühüm addım olacaq. Artıq Qərb mediası da Moskva görüşünü Qərbin Suriya münaqişəsində təsir rıçaqını itirməsi adlandırır. Məsələ ondadır ki, Qərb və ərəb müttəfiqlərinin Suriyada əsas təsiri məhz Türkiyə üzərindən həyata keçir. Silah, maddi yardım və silahlılar əsasən Türkiyə üzərindən Suriyaya keçir. Yəni dolayısı ilə Türkiyənin mövqeyi Suriya münaqişəsinin taleyində həlledici rol oynayacaq.

❑ Kənan RÖVŞƏNOĞLU

# İran prezidenti Xocalı qatili ilə bir arada

## Həsən Ruhani "Ermənistan İranın əbədi dostudur" dedi; Azərbaycandan növbəti etirazlar gəldi; rəsmi Bakıdan Tehrana xatırlatma: "Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan məscidlərini talan və məhv etmiş, təhqir obyektinə çevirmiş ölkədir"

**Dekabrın 21-də İran prezidenti Həsən Ruhani Ermənistana rəsmi səfər edib. İrəvandakı "Zvartnots" hava limanında H.Ruhanini Ermənistan prezidenti Serj Sərkisyan şəxsən qarşılayıb.**

GunAz.TV-nin xəbərinə görə, səfərdən əvvəl jurnalistlərə açıqlama verən İran prezidenti Ermənistana səfərinin "zəruri" olduğunu əsaslandırmağa çalışıb. Onun sözlərinə görə, İran Ermənistan yolu ilə Qara dənizə, Qərbə və Avropa ölkələrinə qovuşmaq niyyətindədir.

H.Ruhanini ölkəsinə dəvət edən işğalçı ölkənin prezidenti S.Sərkisyan İranın Qarabağla bağlı siyasətindən razılığını ifadə edib. Erməni mətbuatına açıqlamasında Sərkisyan deyib ki, Ermənistan İranın Dağlıq Qarabağla bağlı "ölçülü mövqeyini" yüksək qiymətləndirir. Erməni prezident iranlı həmkarına Azərbaycandan aprel müharibəsinə görə şikayətlənməyi də unutmayıb.

Müsəlman ölkənin lideri Azərbaycan ərazilərini işğalda saxlayan Ermənistana yumşaq formada da olsa, hərbi təcavüzə son vermək çağırışını etməyib. Əli Xocalıda azərbaycanlı dinc insanların qanına batmış Sərkisyanla səmimi şəkildə qucaqlaşan Ruhani heç olmasa Qarabağdakı məscidlərin məhv edilməsinə, salamat qalan dini ocaqlarımızda ermənilərin donuz saxlamasına da etiraz etməyib. İran prezidenti ənənəvi mövqe sərgiləməklə kifayətlənib, yenə də təcavüzkarla təcavüzə məruz qalan arasında bərabərlik işarəsi qoymağa üstünlük verib.

"Dağlıq Qarabağ münaqişəsinin hərbi yolu yoxdur"-deyə, prezidenti Həsən Ruhani bildirib. "Biz inanırıq ki, bölgədə sülh və sabitliyin şahidi olacağıq. Biz münaqişənin dinc yolla həllini görmək istərdik. Bu bölgənin xeyrinə olacaq" deyə, o vurğulayıb. H.Ruhani qeyd edib ki, Azərbaycan və Ermənistan İran üçün dost dövlətlərdir.

İran prezidenti Ermənistanın müsəlman torpaqlarını 25 ildir işğalda saxlamasını, din qardaşlarını qətlə yetirməsini bir kənara qoyaraq, ermənilərə dostluq mesajları verib. Ruhani "Ermənistanın əbədilik İran İslam Respublikasının dostu olacağını" (İRNA) deməklə nəinki Azərbaycan, həm də İranda yaşayan milyonlarla azərbaycanlıya qarşı həqarət edib. İran prezidenti XİN başçısı Edvard Nalbəndyanla görüşündə "iki ölkənin əməkdaşlığı ən yüksək səviyyəyə gətirmək istəyirik" deyib və bildirib ki, iki millətin bununla bağlı istək və iradəsi var. Görüşdən sonra rəsmi şəkildə İran və Ermənistan arasında vizanın qaldırıldığı da elan olunub.

**Rəsmi Bakı da İran prezidentinin Ermənistan səfərinə reaksiya verib. "İran müstəqil dövlətdir və bu səfər İran hökumətinin öz qərarıdır". Bunu APA-nın sorğusuna cavab olaraq Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib. O bildirib ki, Azərbaycan-İran münasibətlərinin təməl prinsiplərindən biri də ölkələrin bir-birinin daxili işlərinə qarışmamasıdır:** "Amma nəzərə almaq lazımdır ki, Ermənistan regionda destruktiv siyasət yürüdən, qonşu dövlətlərə ərazi iddiaları irəli sürən, Azərbaycana qarşı təcavüz və işğal törətmiş dövlətdir. Ermənistanın Azərbaycanın işğal edilmiş ərazilərində törətdiyi qanlı etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı hələ də qaçqın və məcburi köçkün vəziyyətindədir. Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan xalqına məxsus maddi-mədəniyyət abidələrini, o cümlədən İslam dininə aid ibadət ocaqlarını, məscidləri talan və məhv etmiş, təhqir obyektinə çevirmiş ölkədir".

**"İran Azərbaycanı İsraillə əlaqə qurmaqda ittiham edir və sözdə İslam həmrəyliyindən danışır. Lakin İran prezidenti müsəlman ölkəsi olan Azərbaycanın torpaqlarını işğal edən Ermənistana səfər edir".**

**Bunu politoloq Azər Rəşidoğlu söylədi. Ekspertin fikrincə, görünən budur ki, Tehranın müsəlmanların hüquqlarının pozulması ilə ifadə etdiyi narahatlıq siyasi mahiyyət kəsb edir:** "Rəsmi Tehran qeyri-səmimidir. İran işğalçını qınamaq və ona təzyiq etmək əvəzinə, hər vasitə ilə işğalçıya dəstək verir və heç şübhəsiz belə addımlar Azərbaycan ictimai rəyində mənfi qarşılanır. Bu gün İran iqtisadi baxımdan İrəvana açıq dəstək verir. İran biznesmenlərinə Azərbaycanın işğal olunmuş ərazilərində rast gəlmək mümkündür. Bəs İslam həmrəyliyi harada qaldı? İran bu gün Dağlıq Qarabağ məsələsində Azərbaycana hərbi və maddi yardım göstərmir, əksinə, Ermənistanın iqtisadi blokadadan çıxarılması üçün əlindən gələni edir". **A.Rəşidoğlu xatırlatdı ki, Bakı Tehranı qıcıqlandıracaq heç bir addım atmayıb:** "Azərbaycan ərazisindən İrana qarşı hərbi müdaxilə üçün istifadə edilməsinə rəsmi Bakı imkan yaratmayacağını bildirib. Bu baxımdan, İran prezidentinin Ermənistana səfəri bizi təbii olaraq, işğala məruz qalan müsəlman ölkəsi kimi narahat edir və Bakının Tehrandan hesabat tələb etməyə tam haqqı çatır".

**Milli Məclisin deputatı Zahid Oruc isə Ruhaninin İrəvan səfərinə fərqli prizmadan yanaşır:** "Ermənistan rəhbərliyi geniş diapazonda xarici siyasət kursu apara bilmir. O üzdən İran nəinki ən yaxın qonşudur, həmçinin dünyaya çıxış yolu, iqtisadi təcridolunmadan və hərbi təklənmədən xilas yoludur. Üstəlik, İran-Azərbaycan münasibətləri İrəvan üçün xüsusi önəm daşıyır. Onlar tarixi və hazırkı geopolitik düzəndə Bakı və Tehran arasındakı ziddiyyətlərdən maksimum bəhrələnməyə çalışırlar. Ona görə Həsən Ruhaninin Ermənistana səfəri müəyyən qədər regionda İsrailin maraqları qarşısına siyasi pərdə çəkmək, Qafqazda güc mərkəzlərindən birinin cənubda yerləşdiyini digər dövlətlərə mesaj etmək üçündür. İran Qarabağ məsələsinə dolayı təsir etməklə münaqişə üzərində regiona daxil olmuş Qərblə savaşı davam etdirir. Lakin İran-Ermənistan müttəfiqliyi bölgənin gələcəyini təmin etməkdə zəif tandemdir və onu istənilən halda kövrək birlik kimi dəyərləndirmək lazımdır. Azərbaycan İran üçün əvəzolunmazdır".



**"İslam prinsipləri ilə idarə olunduğunu iddia edən bir ölkə hər hansı dövlətə münasibətdə müəyyən dərəcədə islam prinsiplərindən kənara çıxmamalıdır. Amma İranın Ermənistanla münasibətləri istisnadır".**

**Bunu isə APA-ya açıqlamasında Milli Məclisin deputatı, Böyük Quruluş Partiyasının başqanı Fazil Mustafa deyib. O bildirib ki, İranın bu siyasəti onun gerçək bir İslam dövləti olmadığının sübutudur:** "Çünki hər hansı bir şəkildə müsəlman torpaqlarını qəsb etmiş bir dövlətlə qəsbkar kimi davranmaq zorunda olan bir ölkə tamamilə başqa prinsiplərlə davranır. Ona görə də İranın Ermənistana maddi, iqtisadi, siyasi - hər cür dəstək verməsi İranın İslama səmimi yanaşmadığının bir göstəricisidir. Bunu dəfələrlə qeyd edirdik, lakin ən gözəl nümunəsi artıq burada üzə çıxdı".

**F.Mustafanın fikrincə, bütün hallarda İranın Ermənistanla münasibətlərinin bu qədər inkişaf etməsi Azərbaycan əleyhinə olan bir mövqeyin göstəricisidir:** "Çünki bu kimi məsələlərdə birinci növbədə İran tərəfindən Azərbaycanın maraqlarının nəzərə alınması vacib idi. Həm Azərbaycanda, həm də İranda bu ölkəni ideallaşdıran insanlar utanmalıdır. İslam dininə mənsub olduqlarını bir az utanaraq deməlidirlər. Bizlər bu məsələdə ümumi mövqe nümayiş etdirərək İranın bu siyasətinə qarşı sərt etirazlarımızı ortaya qoymalıyıq".

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 285 (6606) 22 dekabr 2016

# "Çovdarovun kürəkəninə otaq vermədiyim üçün məndən qisas aldı"

## "MTN işi" üzrə məhkəmədə Akif Çovdarovun poqon yoldaşı İlqar Aşurbəyovdan 300 min manat "xərac" alması epizodu araşdırılır

**Sabunçu Rayon Məhkəməsində ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin cinayət işi üzrə dekabrın 21-də növbəti məhkəmə prosesi keçirilib. Musavat.com xəbər verir ki, hakim Həbib Həsənovun sədrliyi ilə keçirilən proses jurnalistlərin iştirakı olmadan davam etdirilib.**

Məhkəmədə zərərçəkmiş qismində İlqar Aşurbəyov ifadə verib. O, ləğv edilmiş MTN-in sabiq əməkdaşı olub.

İlqar Aşurbəyov 1988-2004-cü illərdə daxili işlər orqanlarında müxtəlif vəzifələrdə çalışıb.

2004-cü ildə MTN-də polkovnik-leytenant rütbəsi ilə xidmətə davam edib. 2009-cu ilə kimi həmin nazirlikdə çalışıb. 2004-cü ilin sonlarında nazirliyin Əks-kəşfiyyat İdarəsinin Aviasiya şöbəsinin 2-ci bölməsinin rəisi vəzifəsinə təyin olunub. Həmin dövrdə struktur dəyişikliyi ilə əlaqədar 2008-ci ilin oktyabr ayında Aviasiya İdarəsinin rəisi vəzifəsini icra etməyə başlayıb. Xidməti ərazisi isə Bakıda hava limanı olub. 2009-cu ildə sərəncama götürülüb.

İ.Aşurbəyov sərəncama götürülməsini belə izah edib ki, Çovdarovun kürəkəni Rəşad Əmircanov onun idarəsində təyinat alıb. Onun dediyinə görə, idarədə Çovdarovun kürəkəninə otaq vermədiyi üçün təzyiqlərə məruz qalıb. O deyib ki, Çovdarov ona təzyiq edib və işdən çıxarılmasına nail olub.

Aşurbəyov onu da deyib ki, sonradan Çovdarov ona hədə-qorxu gələrək 300 min manatını alıb.

**Çovdarovun vəkili Sadiq Rəsulov musavat.com-a deyib ki, Aşurbəyov 300 min manatı ailəsi ilə təhdid edildiyi üçün verdiyini bildirib:** "Biz ona dəfələrlə sual verdik ki, konkret necə hədələnmisiniz? Nə deyilib sizə? O dedi ki, Çovdarov ona "ailən var" deyib deyə qorxub və 300 mini verib. Aşurbəyov deyir ki, MTN cinayətkar yuva olub və şikayət etməyə qorxub. Biz də soruşduq ki, bəs orada niyə işləyib? Həm də pensiya vaxtı çatana qədər MTN-də işləyib. Çovdarovla münasibətləri pozulandan sonra iki il yarım da orada işləyib. Ondan soruşduq ki, niyə işdən çıxarılandan sonra heç kimə şikayət etməyib? Aşurbəyovun nazir Eldar Mahmudova çıxış imkanı belə olub. Ancaq niyə şikayət etmədiyini izah edə bilmədi".

**Aşurbəyovun ifadəsinə Çovdarov da məhkəmədə cavab verib. A.Çovdarov belə deyib:** "Mənə nazir Eldar Mahmudov tapşırıq vermişdi. İş Aşurbəyova tapşırılmışdı. O isə kobud cavab verdi. Mən də bunu nazirə məruzə etdim. Buna görə də Aşurbəyov cəzalandırıldı. Bu səbəbdən də Aşurbəyov məndən qisas almaq istəyir".

Məhkəmədə şahid qismində sabiq MTN əməkdaşı, hazırda DTX-də çalışan idarə rəisi Anar Abidov olub. Abidov zərərçəkmişlərdən Tofiq İbrahimovun epizodu üzrə dindirilib.

**T.İbrahimov MTN əməkdaşları tərəfindən ondan 62 min manat alındığını deyir. Vəkil Sadiq Rəsulov:** "Zərərçəkmiş Tofiq İbrahimov pulun 50 min manatını Anar Abidova verib. Ancaq Anar Abidov nə istintaq zamanı, nə də məhkəmədə Tofiqdən pul almadığını deyir. Bu epizod üzrə Çovdarovun təqsiri olduğunu heç kim demir. Biz də bildirdik ki, necə olur ki, cəlbetmə qərarında göstərilir ki, Tofiqdən 50 min alınıb. Əgər pulu Anar Abidov alıbsa, niyə o, məsuliyyətə cəlb edilmir? Əgər almayıblarsa, niyə onlara qarşı bu ittihamlar irəli sürülüb.


Akif Çovdarov

Həmçinin məhkəmə zamanı Anar Abidovdan əvvəlki MTN-ə şifahi şəkildə müraciət edən vətəndaşların necə dinlənilməsi, şikayətlərinin necə araşdırılması haqda soruşduq. O dedi ki, vətəndaş şifahi şəkildə belə olsa, şikayət edərsə, o mütləq şəkildə MTN-ə dəvət edilib və dinlənilib. Anar Abidov hazırda DTX-də də vətəndaşların eyni qayda ilə dinlənildiyini dedi. Biz bu sualı ona görə verdik ki, Çovdarov və digərlərinə qarşı ittihamda yazılır ki, onlar şifahi şikayətlər əsasında dinləmə aparıblar, kimlərisə izləyiblər. Ancaq aldığımız cavabdan aydın oldu ki, indi də vətəndaşların şikayəti eyni qayda ilə araşdırılır".

Çovdarovun digər vəkili Kamandar Nəsibov isə bildirib ki, həbsdə olan generalın səhhəti əvvəlki günlərə nisbətən yaxşıdır və o, müayinə edilməlidir.

Növbəti məhkəmə prosesi dekabrın 26-na təyin olunub.

Bildirək ki, A.Çovdarovla birlikdə müttəhimlər kürsüsünə ləğv edilmiş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanov da çıxarılıb.

❑ İlkin MURADOV

# Dərdlərimizə niyə lağlağı ilə yanaşırıq?

## Psixoloqlar sübut edib: insan faciəsi, ölümü xaric, bəzi problemlərin öhdəsindən yumorla gəlmək olurmuş



**Sosial şəbəkə, çayxanalar, insanların bir araya gəldiyi məkanlar cəmiyyətdə, xaricdə baş verən proseslərin ən aktual müzakirə olunduğu məkanlar sayılır. Əgər bir dəqiqə əvvəl xəbərlər lentində hansısa olay baş veribsə, bir dəqiqə sonra onun komik janrda müzakirəsi, lağlağısı, hətta deyərdim, kollajı, kapsları da hazırlanır. Manatın devalvasiyası, dollar qıtlığı, Ankarada Rusiya səfirinin qətlə yetirilməsi... hansı biri ilə bağlı komik müzakirələr, satirik statuslar yazılmadı? Məhz bu səbəbdən də Azərbaycan insanının hər şeyə lağlağı gözü ilə baxması, problemləri ciddiyə almaması ilə bağlı rəylər yaranır. Belə bir ovqat formalaşır ki, cəmiyyət problemləri asanlıqla unudur, bir çox hallarda boş verir.**

Məsələn, son iki gündə dünyanı silkələyən ən böyük hadisə Rusiyanın Ankaradakı səfirinin öldürülməsi ilə bağlı müzakirələr komik məcrada davam edir. Səfirin ayaqqabısının nimdaşlığından tutmuş, onun mühafizəsiz gəzməsinə qədər insanlar mövzunu lağlağı kontekstində müzakirə edirlər. Doğrudanmı cəmiyyətdə heç bir mövzu ilə bağlı tabu yoxdur?

Amma psixoloqlar məsələ ilə bağlı fərqli düşünürlər. Ümumiyyətlə, son illər Azərbaycanda psixoloqa müraciət edənlərin sayında bir artım var. İstər azyaşlıların, istər də orta yaşlı insanların psixoloji müalicə alma faizi yüksəlib. **Səhiyyə Nazirliyi Psixi Sağlamlıq Mərkəzinin direktor müavini Rüstəm Salayev** iki ay öncə mediaya açıqlamasında deyib ki, devalvasiyadan sonra psixoloji müayinə üçün mərkəzə müraciət edən kişilərin sayında 30-40 faiz artım qeydə alınıb.

Onun sözlərinə görə, son zamanlar daha çox gənclər, xüsusilə 25-30 yaşlı şəxslər mərkəzə müraciət edir: "Onların həyat tərzi ilə bağlı stress keçirdiklərini güman edirik. Sonuncu iqtisadi böhran vəziyyətindən sonra bu hal daha da artıb. Səbəblər arasında ailə münaqişələri də var".

R.Salayev qeyd edib ki, ay ərzində mərkəzə 1000-ə yaxın təkrar müraciətlər daxil olur.

Amma medalyonun o biri üzü də var. Psixoloqlar onu da sübut ediblər ki, çox vaxt problemdən uzaqlaşmanın yolu onu yumorun gücü ilə zəiflətməkdən keçir. Yəni problemə, qayğıya nə qədər istehza ilə yanaşsan, ona qalib gəlmək bir o qədər asan olur. Psixoloqların fikrincə, öhdəsindən gələ bilmədiyin qayğıdan qurtulmanın yolu onu gözündə maksimum kiçiltməkdən keçir. Bu da ancaq yumorun gücü ilə mümkündür.

Bu da faktdır ki, faciəvi xarakterli hadisələr baş verəndə insanların buna münasibəti fərqli olur. Yəni onlar heç vaxt bunu yumorla ötüşdürməyə çalışmırlar. Neftçilərin ölümü, yanan binalar, partlayışlar... bütün hallarda cəmiyyətin təəssüf, kədər və qəzəb reaksiyaları ilə qarşılanır. Psixoloji araşdırmalar onu sübut edib ki, faciə xarakterli hadisələr heç bir halda insanlarda yumoristik, komik münasibətlə müşayiət oluna bilməz. Hətta belə münasibət göstərməyə cəhd edən şəxslər dərhal cəmiyyətin qınağı ilə qarşılaşa bilərlər. Ona görə də hadisələrə münasibətdə qırmızı cizginin olması bütün hallarda müsbət haldır. Problemləri gülüşlə dəf etməklə, faciələrə arsız yanaşma arasında böyük fərq var.

❑ Sevinc TELMANQIZI

# "Nazirlik 10 milyonun yarısını köçürdü, qalanını cibimizdən verdik"

## "Rabitə işi" üzrə zərərçəkmişlər ifadə verir: "Biz heç nə qazanmırdıq, hamballıq edirdik"

**Dekabrın 21-də Bakı Ağır Cinayətlər Məhkəməsində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) 11 keçmiş əməkdaşının cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Musavat.com xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən iclasda iş üzrə şahidlər dindirilib.

İlk şahid Adil Qasımov ifadə verərək təqsirləndirilən şəxslərdən heç kimi tanımadığını bildirib. "Yeni Həyat" MMC-nin direktoru olmuş A.Qasımov istintaqa ifadəsini təsdiq etdiyini söyləyib.

O, tikinti üçün 80 min manat ayrıldığını, 40%-ni "Aztelekom"un işçisi Həsənalı vasitəsilə onların rəhbərliyinə qaytardığını söyləyib: "Konkret olaraq pulun kimə verildiyini bilmirəm. Biz heç nə qazanmırdıq, hamballıq edirdik".

Təqsirləndirilənlərdən "Aztelekom" MMC-nin baş mühasibi Oktay Rüstəmov deyib ki, A.Qasımov bütün işləri sabiq aparat rəhbəri Vidadi Zeynalovla həll edib.

A.Qasımovun istintaqa ifadəsi elan olunub, orada Oktay Rüstəmovu tanıdığını, geri qaytardığı məbləğin ona çatdırıldığını deyib.

Ziddiyyətli ifadələrə cavab verən A.Qasımov məhkəməyə verdiyi ifadəsini təsdiq etdiyini bildirib.

Digər şahid "Poçtdaşıma" mərkəzinin rəisi Fikrət Vəliyev hazırda həbsdə olan vəzifəli şəxsləri işgüzar münasibətdə olduqları üçün tanıdığını deyib.

Bakı Telefon Rabitə İstehsalat Birliyinin (BTRİB) baş direktor müavini Əhməd Mehdiyev isə ifadəsində deyib ki, 2015-ci ildə keçirilən Avropa Oyunları ilə bağlı kabelləşmənin 200 km məsafəsini qovşaqlar, qalan hissəsini isə özəl şirkətlər çəkib.

Onun sözlərinə görə, müqavilə özəl şirkətlərlə bağlanıb, amma onlar çatdıra bilmədiyi üçün qovşaqlara da işləri görmək tapşırılıb.


Vidadi Zeynalov

O, şirkətlərin həbs edilən Bayram Vəliyevin olduğunu və göstəriş əsasında onlarla işlədiklərini deyib.

**BTRİB-in sabiq rəhbəri Beytulla Hüseynov şahidin çıxışı ilə bağlı danışıb:** "Avropa Oyunları ilə bağlı işlərin görülməsi üçün 10 milyon manat vəsait müəyyən olunmuşdu. Əvvəl 5 milyon köçürdülər, materialları aldıq. Sonra Maliyyə Nazirliyinə müraciət etdik, əlavə pul ayırmadılar, qalanını öz cibimizdən ödədik".

Şahid "Optik Rabitə Tikinti" MMC-nin mühəndisi Ələddin Quliyev rayonlarda kabel çəkilişləri ilə məşğul olduqlarını söyləyib.

Təqsirləndirilən "Optik Qurğular" İdarəsinin rəisi olmuş Namazalı Məmmədovun bacısı oğlu Rəşad Məmmədov da məhkəmədə şahid qismində dindirilib.

O, istintaqa ifadəsini təsdiq etdiyini, "Optik Tikinti Montaj" MMC-nin rəhbəri olduğunu deyib.

**"Qafqaz İnşaat" MMC-nin rəhbəri Qorxmaz Həziyev isə şahid kimi dindirilərkən bildirib ki, rayonlarda tikinti işləri ilə məşğul olublar:** "Şirkətin gördüyü işlərin ümumi həcmi təxminən 20 milyon manat olub. Onun nə qədəri gəlir olub bilmirəm. Elçin İbrahimov dostum olub. Hamı bilir ki, Elçin rabitə nazirin qaynıdır. Elçinə usta, texnika lazım olanda mənə deyirdi göndərirdim".

Həbs edilənlərdən dabiq aparat rəhbəri Vidadi Zeynalov da məhkəmədə danışıb.

**O, həmin şirkətə pulların göndərilməsinə rəhbərliyin göstərişi ilə özünün nəzarət etdiyini deyib:** "Şişirdilmiş rəqəmlər özlərinə aiddir. Bizə nə qədər deyilirdisə, onu göndərirdik".

**Növbəti məhkəmə prosesi dekabrın 23-nə təyin edilib.**

❑ İlkin MURADOV

YENİ MÜSAVAT
N 285 (6606) 22 dekabr 2016

# Bakıda bir gündə iki avtobus qəzası: ölən və bir neçə yaralı var



**Dekabrın 21-də Bakıda iki avtobus sürücüsü ağır qəza törədib. "Report"un xəbərinə görə hadisələrdən biri Nərimanov rayonu Ziya Bünyadov prospektində qeydə alınıb.**

Belə ki, sərnişin avtobusu yüksək sürətlə gələrkən idarəetməni itirərək əvvəlcə dayanacaq yaxınlığında dayanmış taksi fəaliyyəti ilə məşğul olan "Mercedes" markalı avtomobilin sürücüsü Mahmud Cəfərovu, sonra isə onun avtomobilini vurub. "Mercedes" markalı avtomobil zərbənin gücündən Bakı Olimpiya Stadionunun ərazisinə düşüb. M.Cəfərov hadisə yerində ölüb.

İdarəetməni itirən avtobus daha sonra dayanacağa çırpılıb. Nəticədə dayanacaqda avtobus gözləyən sərnişin - 49 yaşlı Zülfüqarova Mələk ağır kəllə-beyin travması alıb.

Faktla bağlı Nərimanov Rayon Polis İdarəsində cinayət işi başlanılıb, araşdırma aparılır.

Bakıda piyada zolağından istifadə edən kişini də avtobus vurub.

"Report"un xəbərinə görə, hadisə Xətai rayonu, Əhmədli qəsəbəsi Məhəmməd Hadi küçəsində qeydə alınıb.

Təxminən 40-45 yaşlarında olan kişi piyada zolağı ilə yolun digər tərəfinə keçmək istəyib. Bütün maşınlar piyadanı gözlədiyi halda, yol hərəkəti qaydasını pozaraq əks istiqamətdə yola çıxan 12 saylı sərnişin avtobusu piyadanı vurub.

Yaralı ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib.

**Faktla bağlı araşdırma aparılır.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Bakıda nişanlı rəfiqəsini şantaj edən qız döyülüb

**Bakıda 28 yaşlı qadın döyülüb. "Report"un xəbərinə görə, hadisə Nizami rayonu, 8-ci kilometr qəsəbəsində qeydə alınıb. Belə ki, 28 yaşlı Əliyeva Səidə Şahin qızı nişanlı olan rəfiqəsi L.M.-in (şərtidir) digər bir şəxslə görüşdüyü vaxt fotosunu çəkib və onu həmin fotoşəkillə şantaj edib.**

Bundan əsəbləşən L.M. anası ilə birgə S.Əliyevanı "Turan" mebel evinin qarşısında avtomobillə vurub. Onlar daha sonra S.Əliyevanı döyüblər və ərazidən uzaqlaşıblar.

S.Əliyeva xəstəxanaya yerləşdirilib.

Faktla bağlı Nizami Rayon Polis İdarəsində araşdırma aparılır.

## Azərbaycanda üç məhbus ölüb

**Azərbaycanda daha 3 məhkum vəfat edib. APA-nın məlumatına görə, Penitensiar Xidmətin Müalicə Müəssisəsində müalicə olunan məhkumlar - Rafiq Məmmədtağıyev, Məzahir Həmdəmov və Namiq Acalov dünyalarını dəyişiblər.**

Onların müxtəlif xəstəliklərdən əziyyət çəkdikləri bildirilir.

## Şirvanda 37 top mərmisi tapılıb



**Şirvanda xeyli sayda top mərmisi tapılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Şirvan Şəhər Polis Şöbəsi əməkdaşları tərəfindən şəhər ərazisində 37 ədəd (istismara yararsız) top mərmisi aşkarlanıb.**

Mərmilər ANAMA-ya təhvil verilib.


**Elan**

**Biləcəri qəsəbəsi Natiq Haşimi küçəsində 5 mərtəbəli daş binanın 2-ci mərtəbəsində 3 otaqlı mənzil satılır.**
**Qiyməti 85.000 AZN.**
**Əlaqə telefonu: 050 473-72-53**


## İşgəncələrə dözməyən məhkumun dilini kəsməsinə Penitensiar Xidmət reaksiya verdi

### Mehman Sadıqov: "Hər hansı bir narazılıq varsa, Penitensiar Xidmətin baş idarəsinə müraciət etsinlər"

**"13 saylı cəzaçəkmə müəssisəsində saxlanılan məhkum Natiq Vaqif oğlu Cabbarlı 2 aydır ki, müntəzəm olaraq müəssisənin rəis müavini Elçin Əlicanov tərəfindən fiziki və mənəvi işgəncələrə məruz qalır". Bu haqda gununsesi.info-ya məhkumun atası Vaqif Cabbarov məlumat verib.**

Onun sözlərinə görə, məhkum Natiq Cabbarlı cəza çəkdiyi müddətdə dəfələrlə rəis müavini E.Əlicanov tərəfindən döyülərək karserə salınıb: "Sonuncu dəfə isə oğlum Natiq Cabbarlı E.Əlicanov tərəfindən daha dəhşətli işgəncələrə məruz qalanda özünə qəsd edib. Hazırda Natiqin vəziyyəti çox ağırdır. Onu Pentensiar Xidmətin Bakıdakı müalicə müəssisəsinə köçürüblər"-, deyə məhkumun atası bildirib.

Son anda əldə etdiyimiz məlumata görə, məhbus N.Cabbarlı işgəncələrə dözməyərək, dilini kəsib. Hazırda vəziyyəti ağırdır.

"Yeni Müsavat" əməkdaşı məsələ ilə bağlı Penitensiar Xidmətin mətbuat xidməti ilə əlaqə saxlayıb. Xidmət rəisi Mehman Sadıqov mətbuatda yazılanlarla tanış olduqlarını deyib. Baş vermiş olayla bağlı məhkumun yaxınlarına Penitensiar Xidmətin baş idarəsinə müraciət etmələrini tövsiyə edib: **"Hər hansı bir narazılıq varsa, Penitensiar Xidmətin baş idarəsinə müraciət etsinlər. Mətbuatda gedən məlumatı araşdırmışıq, döyülmə olmayıb".**

**Məhkumun işgəncələrə dözməyərək dilini kəsməsinə M.Sadıqov belə cavab verdi:**

"Hər hansı bir narazılıq varsa, Penitensiar Xidmətin baş idarəsinə müraciət etsinlər".

**❑ E.MƏMMƏDƏLİYEV**

## "Körpə uşaqların əllərinin ət maşınında qalması artıq adi hala çevrilib"

**"Körpə uşaqların əllərinin ət maşınında qalması artıq adi hala çevrilib. Demək olar ki, institutumuza hər gün bu cür müraciətlər daxil olur. Bu da əsasən valideyn nəzarətsizliyi nəticəsində baş verir. Belə xəstələrin əlini bərpa etmək çox çətin olur".**

"Report" xəbər verir ki, bunu Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun Əl cərahiyyəsi şöbəsinin rəhbəri Fikrət Qafarov bildirib.

O deyib ki, zədələnmələrlə bağlı müraciət edənlər arasında əlindən travma alanlar 40 faiz təşkil edir: "Əl zədələnmələri arasında anadangəlmə qüsurlar, əmək alətlərindən düzgün istifadə etməmək nəticəsində yaranan qüsurlar çoxluq təşkil edir. Uşaqların əl yanığı ilə bağlı müraciətlər də çox olur. Əlləri yanan uşaqlar üzərində bəzən 20 yaşına qədər əməliyyat aparmalı oluruq. Bəzən bu cür xəstələrin üzərində qeyri-peşəkar əməliyyatlar aprılır ki, bu da sonradan çox ağır fəsadlara yol açır. Xəstələr mütləq ixtisaslı həkimlərə müraciət etməlidirlər".



## Ağcabədi sakini dostunu bıçaqlayıb öldürdü

**Ağcabədi rayonunda qətl hadisəsi baş verib. APA-nın Qarabağ bürosunun xəbərinə görə, rayon sakini, 1971-ci il təvəllüdlü Kərimov Namiq Ramazan oğlu rayon ərazisində bıçaqlanıb. O, xəstəxanaya aparılarkən yolda ölüb.**

İlkin məlumata görə, N. Kərimov dostu tərəfindən bıçaqlanıb.

Faktla bağlı araşdırma aparılır.


**Elan**

**Heyinova Şəfər Əli qızına məxsus şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**





# Ağcabədidə sakinlərin bazar problemi

## "İcra başçısının razılığı ilə bələdiyyə şəhərin mərkəzində küçə ticarəti formalaşdırıb, yığılan pullar şəxsi ciblərə gedir, dövlətə vergi verən bazar isə boş qalıb"

**Bir qrup Ağcabədi rayon sakini - kiçik sahibkarlar redaksiyamıza müraciət edərək, prezident İlham Əliyevə ünvanladıqları müraciətin işıqlandırılmasını xahiş ediblər. "Bizim uzun illərdir çalışdığımız bazar boşaldılır, bazarın qarşısında bələdiyyə küçə ticarəti yaradıb, işləyə bilmirik. Poçt vasitəsilə cənab prezidentə yazdığımız məktubları ona çatdırmırlar, bu səbəbdən 700 nəfər kiçik ticarətçinin adından müraciətimizi qəzet vasitəsilə çatırmağı rica edirik" - deyə rayon sakinlərinin müraciətində bildirilir.**

Ticarətçilər deyir ki, Ağcabədi bazarında sahibkarlıq fəaliyyəti ilə uzun illərdir məşğuldurlar: "Ancaq xeyli müddətdir ki, rayon bələdiyyəsi bazarın qarşısında, rayon mərkəzindəki küçələri bağlamaqla küçə ticarəti yaradıb. Bu üzdən illərdir dövlətə vergi ödəyən qanuni ticarətçilər artıq bazarda çalışa bilmir. Faktiki olaraq elə durum yaranıb ki, kimsə çörək qazanmaq istəyirsə, çıxıb küçə ticarəti ilə məşğul olmalıdır. Ağcabədi Rayon İcra Hakimiyyətinin küçədə alver edilməsi üçün verdiyi razılıq məktubu ilə bələdiyyə nəzarətində küçə ticarəti yaratmış bazar rayonun mərkəzindəki H.Hacıyev küçəsində gediş-gəlişi məhdudlaşdırıb, daim burada tıxac olur. Nəticədə əsas bazar tamamilə fəaliyyətsiz vəziyyətə düşüb. Faktiki olaraq səhər saat 6:00-dan 15:00-a kimi bazara giriş mümkün deyildir. Yaranmış bu vəziyyətlə bağlı aidiyyəti qurumlara müraciət etsək də, inzibati amirlik hamını susdurur. İcra hakimiyyətinin razılığı ilə bələdiyyənin küçə ticarəti formalaşdırması vətəndaşlara yeni iş yerləri açılmasını təşkil etmək əvəzinə iş yerlərinin məcburən bağlanmasına gətirib çıxarır".

**Sakinlər qeyd edir ki, bazarın qarşısında yaradılan küçə ticarəti rayonun mərkəzi -H.Hacıyev və 28 may küçələrindəki ev və obyektlərdə baş verə biləcək hər hansı yanğın hadisəsi zamanı bura yanğınsöndürən maşınların, təcili yardımın girməsini əngəlləyir:** "Həmçinin küçədə ayaq altında satılan kənd təsərrüfatı məhsulları və ərzaqlar qeyri-sanitar qaydada, tozun-torpağın içində alıcıya təklif olunur. Bu da infeksion xəstəliklərin yaranmasına səbəb ola bilər.

Hansı ki, bazarın daxilində 300-dən artıq nümunəvi qaydada kənd təsərrüfatı məhsullarının satışı üçün nəzərdə tutulmuş piştaxtalar, köşklər var. Amma bazarı boş qoyub, küçə ticarəti formalaşdırırlar. Nəticədə biz dövlət büdcəsinə vergiləri verə bilmirik, çünki bazarda alver edilmir, küçə ticarəti ilə məşğul olmaqla isə ancaq bələdiyyəyə pul verilir, bu da şəxsi ciblərə gedir. Biz aidiyyəti qurumlara müraciət etdikdə isə təzyiqlərə məruz qalırıq".







**Sakinlər qeyd edir ki, yaranmış təhlükəli vəziyyətlə bağlı Fövqəladə Hallar Nazirliyinə də müraciət edilib:** "Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin Qarabağ Regional İdarəsindən də 37-36-1445 saylı cavab məktubu ilə bildirilib ki, bazarın qarşısında küçə ticarəti yaradılması səbəbindən ərazidə hansısa fövqəladə hal, yanğın baş verəndə ora daxil olmaq üçün şərait yaradılmayıb. FHN-in regional idarəsinin bununla bağlı xəbərdarlıq məktubuna da icra hakimiyyəti məhəl qoymur, küçə ticarəti yığışdırılmır. Həmçinin bazarın rəhbəri Qəhrəman Quliyevin vergilər naziri Fazil Məmmədova da müraciəti var, orada bildirilir ki, bu bazar dövlətə ildə 60 min manatadək vergi ödəyib. Amma indi küçə ticarəti səbəbindən bazar boşalır, vergiləri, sosial müdafiə fonduna ödəmələri etmək mümkün olmur. Çünki küçə ticarətinə görə bazarda alver edənlər köşklərini təhvil verib çıxıb ya küçə ticarəti ilə məşğul olur, ya da alverdən tamam uzaqlaşır. Məsələ ilə bağlı bir bələdiyyə üzvü gəldi, bizimlə söhbətində dedi ki, bütün bu işlər icra başçısının razılığı ilə həyata keçirilir. Cənab prezident, siz islahatlar aparırsınız, büdcədən yayınmalarla mübarizəyə səsləyirsiniz, Ağcabədidə isə başçı, digər məmurlar küçə ticarəti yaradıb qanunsuz işlərlə məşğul olurlar. Xahiş edirik, rayondakı küçə ticarətinin aradan qaldırılmasında bizə köməklik göstərəsiniz".

Müraciəti Qəribova Rəsmiyə Əkbər qızı (AZE 15782591), İsgəndərova Elza Sevindik qızı (AZE 00501881), Abbasova Yaqut Becan qızı (AZE 07446512), Hüseynov Ədalət Fəti oğlu (AZE 14386240), Fərzəliyev Elvin Vəzir oğlu (AZE 08596586) və digər 70 nəfər eyni qaydada imzalayıb.

**Qarşı tərəfin də mövqeyini işıqlandırmağa hazırıq.**

**❑ M.MAHRIZLI**

# 21 dekabr: Böyük çillə gecəsində nə baş verir?

## Payız öz yerini daha sərt fəslə - qışa verdi

**Hər il olduğu kimi, dekabrın 21-i gecəsi Azərbaycanda ən uzun gecə kimi qeyd olundu. Hesablamalara görə, gecənin uzunluğu 14 saat 43 dəqiqə olub. Beləliklə, gündüzün də vaxtı qısalaraq 9 saat 17 dəqiqə olub. Nəticədə fəsil dəyişkənliyi baş verir, payız öz yerini qışa verir.**

Dekabrın 27-dən başlayaraq isə 1 dəqiqə fərqlə gecələr qısalacaq, gündüzlər isə uzanacaq. Bu proses martın 21-dək davam edir. Və martın 21-də yaz gecə-gündüz bərabərliyi baş verir. 21 dekabr həm də xalq təqvimi ilə Böyük Çillə gecəsi hesab olunur. Təqvimə görə, dekabrın 21-dən yanvarın 30-dək Böyük çillə, yanvarın 31-dən fevralın 19-dək Kiçik çillə, fevralın 20-dən martın 20-dək Boz ay davam edir.



Böyük çillə gecəsi təkcə Azərbaycanda deyil, qonşu dövlətlərdə, İran və Türkiyədə də keçirilir. O cümlədən Azərbaycanın Naxçıvan, Şəki, Gəncə və çoxsaylı kəndlərində, İranın Urmiya, Ərdəbil, Zəncan, Xoy, Sulduz, Marağa şəhərlərində bu gecə xüsusi olaraq keçirilir. Çünki çillə gecəsi qədim Zərdüşt bayramı, Günəş Allahı Mitranın anadan olan günüdür. Həmin gündən sonra günəşli günlər uzanır. Bayramın ideyası işığın qaranlıq üzərində simvolik qələbəsidir. Qədim inanclara görə, həmin gecə xeyir qüvvəsi (Axura Məzda), şər qüvvəsi (Əhrimən) ilə kəskin mübarizə aparmışdır.

Bu gecədə qar yağması çoxlu sevincə səbəb olur. Həmin gecə ailə üzvləri, qohum, dost, tanış səmimiyyətlə bir yerə yığışır və ilin ən uzun gecəsini çoxlu meyvə və şirniyyat yeməklə qeyd edirlər. Gecənin ən əhəmiyyətli atributlarından biri isə qarpızdır. Belə ki, hər ailə həmin gecə mütləq bir qarpız almalıdır. Əgər yeni evlənənlər varsa, onlara da valideynləri tərəfindən qarpız hədiyyə edilir. Qoz, kök halvası, paxlava, günəbaxan toxumu, meyvə və şirniyyatlar bu gecə süfrədə olmalıdır.

Araşdırmalardan isə məlum olur ki, ümumiyyətlə, lap qədim zamanlarda türklər 21 dekabrı Yeni il kimi qeyd ediblər. Bununla bağlı türk mənbələrində Kara-Tun bayramı da var. Hətta bu gün də bir çox türkdilli xalqların 21 dekabrda həmin bayramı qeyd etdiyi bildirilir.

**Bəs 21 dekabr, ilin ən uzun gecəsində hansısa astroloji dəyişikliklər baş verirmi? Tanınmış astroloq Səbuhi Rəhimli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ümumiyyətlə, gecənin və ya gündüzün uzun keçməsinin astroloji məsələlərə aidiyyəti yoxdur:** "Həmin gecə qaranlıq əvvəlki gündən, sadəcə, 3-4 dəqiqə daha çox uzun olur. Bunun da insan orqanizminə elə də müsbət və ya mənfi təsiri yoxdur. Amma məsələn, Günəş tutulması, planetlərin paradı, hansısa planetin yerə yaxınlaşması, Günəş partlamaları olması təbiətə və insan orqanizminə birbaşa təsir edə bilir. Amma gecənin uzun keçməsi istər tibbi, istərsə də astroloji məsələlərə təsir göstərmir".

**❑ Xalidə GƏRAY**



# İkinci qrup əlil yardım istəyir

## Elxan Şeydayev: "Maddi durumum çox ağırdır"

**Şabran sakini, 60 yaşlı Elxan Şeydayev Bəhrayıl oğlu redaksiyamıza gələrək aidiyyəti qurumlardan ona maddi yardım göstərilməsini xahiş edib. E.Şeydayev qeyd edib ki, 2-ci qrup əlildir və uzun müddətdir pedaqoq kimi çalışır. Hazırda isə maddi durumu acınacaqlı vəziyyətdədir:**

"Hərbi əlil olduğum üçün 30 ildir ki, Şabran şəhərində mənzil növbəsindəyəm (əlil kimi güzəştli növbədəyəm). 1993-cü ildə güzəştli növbədə 5-ci olmuşam. 2013-cü ilin fevralında isə 5-ci sıradan 168-ciyə keçmişəm. 5-ci ildir ki, Şabranın Pirəbədil kənd tam orta məktəbində müəllim işləyirəm. Ali təhsilliyəm. Bir neçə il əlaçı təqaüdü almışam. Könüllü hərbi xidmətdə (Sovet ordusunda) olmuşam. Maddi durumum çox ağırdır. Amma hər ay çox çətin olsa da 350 manat yüksək faizlə kredit ödəyirəm. 2003-cü ilin yayında borc-xərclə Xətai rayonu K.Kərimov küçəsi 34 -(153) ünvanında, 17 illik güzəştlə 3750 dollara 12,5 kvadrat metrlik 1 otaqlı həyət evi almışam. 3 övladım və nəvəm var. Hazırda 7 yaşlı qızım, həyat yoldaşım və mən, üçümüz birlikdə həmin 1 otaqlı, heç bir şəraiti olmayan mənzildə yaşayırıq. Digər övladlarım da kirayədə yaşayır. Maddi köməkliklə bağlı Xətai və Şabran Rayon İcra hakimiyyətlərinə müraciət etdim, lakin ordan məni şərləməyə, oğurluqda ittiham etməyə çalışdılar". **Şikayətçi bundan əvvəl bir neçə dəfə sosial yardım aldığını deyir:** "Lakin heç bir köməyi olmadı. Sizin qəzetiniz vasitəsilə aidiyyəti orqanlardan xahiş edirəm ki, mənə birdəfəlik maddi yardım verilməsi ilə bağlı köməklik göstərilsin".

Məsələ ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi ilə əlaqə saxladıq. Nazirlikdən "Yeni Müsavat"a bildirildi ki, tezliklə məsələ ilə bağlı vətəndaşın maddi durumu araşdırılacaq və lazım gələrsə, qanun çərçivəsində ona köməklik göstəriləcək.

**❑ Xalidə GƏRAY**

YENİ MÜSAVAT

Son səhifə

N 285 (6606) 22 dekabr 2016

# Boşanmaları münasibətilə ziyafət təşkil etdilər



ABŞ-ın Kaliforniya ştatında yaşayan cütlük boşanma münasibətilə ziyafət təşkil edib. 48 yaşlı Mişel Maxoni və Ceff Bessera 24 il evli qalıblar. Cütlük 2014-cü ildə ailə həyatlarında ciddi problemlər yaşamağa başlayıblar və boşanmağa qərar veriblər. Amma ər-arvad ayrılmağa qərar versələr də, dostluq münasibətlərini saxlamağa müvəffəq olublar. Ona görə də yaxın dostlarını, çevrələrini yığaraq, həyatlarındakı yeni mərhələni qutlayıblar. Xəbərdə qeyd olunur ki, dəvət olunanların 70 faizi bu dəvətə müsbət yanaşıb və məclisə gəlməklə dəstək veriblər. Gəlməyə tərəddüd edənlər isə bu mərasimin mənasını anlamayıblar: "Biz əvvəlki insanlar olaraq qalmışıq. Bir-birimizi də yenə sevirik. Amma artıq həyatımızın sonuna qədər romantik münasibətlərimizi davam etdirmək istəmirik". Bunu da Maxoni deyib. Amerikan cütlüyün iki qızı var: 20 yaşlı Rayli və 18 yaşlı Emma.



# Yaddaşını itirdi, evlənmə təklifi etdiyini unutdu

Beynindəki qanama səbəbindən yaddaşını itirən 33 yaşındakı adam nişanlısına evlənmə təklifi etdiyini unudub. İngiltərədə Vill adlı jurnalist uzun zamandır sevgili olduğu Emiyə bir çimərlikdə evlənmə təklifi edəndən sonra beyin qanaması keçirib və yaddaşını itirib. Emi isə deyib ki, Villin təkcə "qəbul edirəm" sözlərini xatırlaması ona bəsdir. 4 il əvvəl Sevgililər Günündə Dublində tanış olan cütlük ilk görüşdə bir-birinə vurulub. Sevgili olandan 12 ay sonra Vill şüurunu itirməyə başlayıb və beynində həyati təhlükə olan bir qanama başlanıb. Həkimlər müəyyənləşdiriblər ki, gənc adam beynində bir doğum ləkəsi ilə dünyaya gəlib və həyatı boyu bu ləkəni saatlı bir bomba kimi daşıyacaq. Təcili surətdə əməliyyata aparılan Vill ölümlə mübarizədə qalib gəlib, amma həkimlər beynindəki şişməni azaltmaq üçün onu süni komaya salıblar. Bu hadisənin üstündən 3 il keçəndən sonra gənc adam hələ də sağdır, amma yaddaşında qısamüddətli problemlər yaşayır. Hətta nişanlısına evlənmə təklif etdiyini belə xatırlamır. Gənc adam evlənmə təklifi etdiyi günün şəkillərinə baxaraq xatirəsini təzələyir. Cütlük hazırda evlidir.

# Ailə insanları daha uzunömürlü edir

Alimlərin 13 il ərzində apardıqları araşdırma zamanı bir neçə min tənha və ərdə olan xanımların səhhəti tədqiq olunub. Lenta.ru saytının xəbərinə görə, məlum olub ki, ailəli və nikahından xoşbəxt olan xanımlar hipertoniyadan və ürək-damar sistemindəki digər problemlərdən düz 2 dəfə az əziyyət çəkir. Onlarda depressiya daha az olur, stress hallarını isə tənha qadınlarla müqayisədə daha asan adlayırlar. Araşdırmalara əsasən evli kişilər də subay kişilərlə müqayisədə daha çox yaşayırlar. Britaniyalı alimlər bunun bir neçə səbəbini müəyyən ediblər. Adətən kişilər öz səhhətlərinə qarşı kifayət qədər etinasızdılar. Qadınlar isə əksinə, öz orqanizmlərinə qarşı daha diqqətlidirlər. Bu səbəbdən də məhz qadınlar öz həyat yoldaşlarının səhhətində bir problem gördükdə onları həkimin qəbuluna yazılmağa məcbur edirlər. Bundan əlavə, qadınlar həyat yoldaşlarını vaxtı-vaxtında dərman içməyə və həkimlərin göstərişlərinə əməl etməyə də məcbur edirlər.İnfarkt və ya insult almış ailəli kişilər xəstəxanaya daha tez çatdırılırlar. Bu da onların həyat yoldaşlarının operativliyinə görə baş verir.



# İspan qadınlar virtual eşq yaşamaqda liderdir

Dünyada kişilərlə ən çox virtual flirt (eşqbazlıq) edən qadınlar ispanlardır. Bu, beynəlxalq ictimai tanışlıq saytı "Bado" tərəfindən keçirilən araşdırma nəticəsində məlum olub. Sayt tərəfindən yaradılan "Dünya flirt liqası"nın zirvəsinə yerləşən ispan qadınlar hər ay 1.33 kişi ilə tanış olur. Siyahıda İspaniyanı müvafiq olaraq Polşa və Dominik respublikası təqib edir. Daha maraqlı bir fakt isə siyahıda Latın Amerikası ölkələrinin çoxluq təşkil etməsidir.

Dünya flirt liqası:
1-İspaniya
2-Polşa
3-Dominik Respublikası
4-İtaliya
5-Argentina
6-Braziliya
7-Çili
8-Portuqaliya
9-Kanada
10-Venesuella




QOÇ - Hansısa məqsədlərinizi reallaşdırmağa tələsməyin. Çünki ixtiyarınızda olan bu təqvim aktiv deyil. Yaxşı olar ki, düşüncələrinizi ilahi qanunlar əsasında tənzimləyəsiniz.

BUĞA - İşgüzar sövdələşmələrə başlamağa dəyər. Amma bu planınızı nahardan sonraya saxlamayın. Əks təqdirdə, razılığa gələ bilməyəcəksiniz. Ulduzlar pəhriz saxlamağı məsləhət görür.

ƏKİZLƏR - Ümumi mənzərə ürəyinizcə olacaq. Ələlxüsus da günün birinci yarısında iştirakçısı olduğunuz proseslərdən məmnun qalacaqsınız. Amma imkan varsa, uzaq yola çıxmaqdan vaz keçin.

XƏRÇƏNG - Özünüzə qapılmağa son qoyun. Çünki indi aktivlik məqamıdır. Göylərə, ulduzlara bel bağlamaqdansa reallığı nəzərə alıb konkret addımlar atın. Sadəlövh olmağın yeri deyil.

ŞİR - Əgər vacib bir işiniz çıxmazsa, vaxtınızı daha çox oturaq şəraitdə, lap elə evdə keçirin. Çünki bu gün sizin üçün passiv gündür. Ulduzların düzümü yalnız saat 16-18 aralığını uğurlu sayır.

QIZ - Bu günün sizə mənfi təsir edəcəyi gözləniləndir. Odur ki, fəaliyyətdə və qarşılıqlı münasibətlərdə obyektivliyinizi qorumağa çalışın. Yaxşı olar ki, axşamı öz evinizdə keçirəsiniz.

TƏRƏZİ - Dünəndən Ay bürcünüzdə olduğu üçün davranış və ünsiyyətinizdə sabitliyi qoruyun. Hər hansı riskli addımlara da yol verməyin. Axşama doğru ürəyinizə yaxın adamlarla bir araya gəlin.

ƏQRƏB - Ümumi süstlüyünüzü nəzərə alıb daha çox istirahətə yer ayırın. Qəlbinizə yaxın insanlarla görüşməyiniz rahatlığınızı artıracaq. Maliyyə sahəsində də uğurlarınız mümkündür.

OXATAN - Əgər gün ərzində səhhətinizi nəzarətdə saxlaya bilsəniz, hansısa digər probleminiz üzə çıxmayacaq. Saat 14-17 arası maraqlı və gələcəyinizdə rol oynaya bilən adamlarla rastlaşacaqsınız.

OĞLAQ - Yaxşı olar ki, bütün məsələlərdə daxili sabitliyinizi qoruyasınız. İnsanlarla münasibətdə neytral olmağa çalışın. Onsuz da ətrafınızdakılar bu gün sizi tam anlamayacaqlar.

SUTÖKƏN - Qarşınızda sevinc dolu bir təqvim durur. Ulduzlar zamanın bütünlüklə xeyrinizə işləyəcəyindən xəbər verir. Bu səbəbdən də aktivliyinizi artırmalısınız. Maraqlı görüşlər də mümkündür.

BALIQLAR - Günün ilk yarısını daha çox istirahətə həsr edin. Həmin ərəfədə evdə təmir-tikinti işləri ilə məşğul olmaq səmərəlidir. Sonrakı müddətdə isə planların icrasına başlamaq olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 4 yaşlı qızının başında yeni il ağacı qurub



ABŞ-ın Arkanzas ştatı sakini yaxınlaşmaqda olan Milad bayramı münasibətilə qızına müxtəlif növ saç düzümləri edir. Qreq Vikxerst adlı kişi bunun üçün özəl olaraq bərbər kursunu bitirib. Ata 4 yaşlı qızı İzzini təkbaşına böyüdür. Məktəbdəki bayram mərasimi üçün ata qızının başında bəzənmiş və üzərində oyuncaq, hədiyyə asılmış şam ağacı düzəldib. Kişiyə bunu ərsəyə gətirmək üçün bir saat vaxt lazım olub. Vikxerst eyni zamanda qızı İzzinin başında yeni il ağacı və Santa Klaus papağı da düzəldib: "Biz Milad bayramı mahnılarını dinləyirik, qaynar şokolad içirik və mahnılar oxuyuruq. Mən bu bayramla bağlı bizim üçün mümkün olan bütün qeyri-adilikləri etməyə çalışıram".

Tənha ata facebookda qızının saç düzümlərini paylaşdığı səhifə yaradıb.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750